# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

05 dekabr 2024-cü il, cümə axşamı
№ 224 (6810)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

## 685 bələdiyyə üzrə...

## Ümumilikdə 8071 üzv seçiləcək



Bax səh. 2



## İqlim ailəsinin növbəti yüksək etimadı

Bax səh. 3

## 10-cu iclas Bakıda keçiriləcək

Bax səh. 3

## Vergi yükünün azaldılması, investisiya mühitinin yaxşılaşdırılması...

Məlum olduğu kimi Prezident İlham Əliyev "Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanunu təsdiqləyib. 2025-ci il yanvarın 1-dən qüvvəyə minəcək yeni dəyişikliklərin əsas istiqamətləri sahibkarlıq və investisiya fəaliyyətinin təşviqi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergi nəzarəti mexanizminin və vergi inzibatçılığının təkmilləşdirilməsi, beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yaxşılaşdırılmasını nəzərdə tutur. Bütün bu hədəflər isə ölkəmizin dayanıqlı, inklüziv və özəl təşəbbüslərə arxalanan iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün mövcud potensialın daha da gücləndirilməsinə xidmət edir. Qeyd edək ki, 2025-ci ilin dövlət büdcəsi layihəsində gəlirlər üzrə siyasətin əsas istiqamətlərində vergi yükünün optimallaşdırılması, sahibkarlığın dəstəklənməsi və strateji sahələrə investisiyaların təşviqi, vergi və gömrük inzibatçılığı mexanizmlərinin təkmilləşdirilməsi və ekoloji təmiz nəqliyyat vasitələrinin dövriyyəsinin artırılması kimi bəndlər nəzərdə tutulub.

Vergi qanunvericliyinə edilmiş dəyişiklikləri bir neçə istiqamətdə təsnifləşdirilə bilər. İlk istiqamət sahibkarlıq fəaliyyətinin təşviqi yolu ilə biznes icmasının vergi yükünün azaldılması, investisiya mühitinin yaxşılaşdırılması, eləcə də dövlət - özəl sektor tərəfdaşlığının müasir çərçivəsinin yaradılmasıdır. Bu hədəf üzrə vergi təşviqlərinin verilməsi nəzərdə tutulur. Təşviqlər bərpa olunan enerji mənbələrindən istifadə sahəsində həyata keçirilən layihələrə investisiya qoyuluşunu stimullaşdırmaq, uzunmüddətli dövrdə dövlətin maliyyə yükünü azaltmaq, istehlakçılar üçün tariflərin aşağı salınmasını və daxili istehsalın dəstəklənməsi məqsədilə vergi azadolmalarını əhatə edir. Bu istiqamətin digər bəndi kimi teatr, kino, muzey və simfonik orkestr fəaliyyəti üzrə...

Bax səh. 4



## Ermənistan BMT-də ifşa olundu

Bax səh. 4

## Yenilənmiş inflyasiya proqnozları nə vəd edir?

Bax səh. 4

## Xaricdən idarə olunan dövlət çevrilişinə cəhd

Bax səh. 4

## Ukrayna çətin durumda...

Bax səh. 4

## NATO müəmması...

Bax səh. 4

## Sülh imzalansa...

Ermənistanda iqtisadi və sosial vəziyyətin günü-gündən ağırlaşması həm ölkədaxili gərginliklərin artmasına, həm də mühacirət dalğasının genişlənməsinə səbəb olur. Demoqrafik balansa, iqtisadi inkişafa və siyasi sabitliyə mənfi təsir göstərən bu proseslər Ermənistanın qarşısında duran əsas çağırışlardan biridir. Sirr deyil ki, Ermənistanın iqtisadiyyatı əsasən xarici maliyyə dəstəyi və diasporun göndərdiyi vəsaitlərdən asılıdır - bu vəziyyət isə daxili iqtisadi müstəqilliyin təmin olunmasını çətinləşdirir. Yaranan mühit öz növbəsində insanların ölkədən qaçmasına mühüm əsaslar yaradır. Son dövrlərdə aparılan sosial sorğular göstərir ki, mühacirət Ermənistanda ənənəvi olaraq ağır iqtisadi və sosial şəraitin qaçılmaz nəticəsi sayılır. Ölkədən qaçmanın əsas səbəbləri kimi isə:

- İşsizlik və aşağı maaş səviyyəsi;
- Təhlükəsizlik problemləri və siyasi qeyri-sabitlik;
- Xaricdə daha yaxşı sosial xidmətlərə çıxış imkanı və bu kimi amillər göstərilir.

Post-müharibə dövründə, xüsusilə son 2 ildə Ermənistan vətəndaşlarında yeni iqtisadi mühitin yaranacağı ilə bağlı ümidlər formalaşmışdı - hər kəs anlayır ki, Azərbaycanla sülhün imzalanması Ermənistanın da regionun ümumi inkişaf səviyyəsinə çatmasına yol aça bilər. Amma bu proses ölkənin siyasi rəhbərliyinin apardığı manipulyativ siyasət nəticəsində reallaşmır. Nəticədə isə son iki ildə Ermənistanda iqtisadi və sosial problemlərdə artan tempi müşahidə olunub. Bu dövr ərzində iqtisadi durğunluq, işsizlik və sosial gərginlik ciddi miqyas alıb. Məsələn, Ermənistanın xarici borcu 2024-cü ildə rekord səviyyəyə çataraq təxminən 9 milyard dolları keçib. Eyni zamanda, inflyasiya səviyyəsi yüksək olaraq qalmaqdadır və ərzaq qiymətləri əhalinin əksəriyyəti üçün əlçatmazdır. İnsanlar hakimiyyətin fərqli xarici dairələrin və dövlətlərin imitativ oyunlarına qapılaraq sülhdən yayınmasına ölkəni tərk etməklə "etiraz" edirlər. Rəsmi məlumatlara əsasən, son iki ildə Ermənistanı təxminən 100 min insan tərk edib. Onların böyük əksəriyyəti gənclər və mütəxəssislərdir. İqtisadi çətinliklər, işsizliyin...

Bax səh. 5



## Yelisey Sarayı siyasi böhran məngənəsində

Bax səh. 6




## Cənubi Koreyada 45 ildən sonra...

Bax səh. 6

# Düşənbədən zəng...



Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon dekabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, telefon söhbəti zamanı Prezident Emoməli Rəhmon COP29-un uğurlu təşkilinə görə təbriklərini çatdırıb və onun nəticələrinin qlobal iqlim gündəliyinin irəli aparılması baxımından vacibliyini vurğulayıb.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirib, Emoməli Rəhmonun COP29-un Liderlər Sammitində iştirakını və bütövlükdə Tacikistan nümayəndə heyətinin müzakirələrə fəal töhfə verdiyini məmnuniyyətlə qeyd edib.

Telefon söhbəti zamanı ikitərəfli gündəliyə aid olan aktual məsələlər, həmçinin Tacikistanın MDB-də qarşıdan gələn sədrliyi çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

# Türk dünyasının növbəti bir uğuru...



## Prezident İlham Əliyev Türkiyənin sabiq xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Mövlud Çavuşoğlu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Mövlud Çavuşoğluna Qərbi Azərbaycan İcmasının Bakıda keçirəcəyi Beynəlxalq Konfransda iştirakına görə minnətdarlığını bildirərək, bu tədbirin əhəmiyyətinə toxundu.

Mövlud Çavuşoğlu da öz növbəsində bu konfransın önəmini vurğuladı və tədbirə dəvətə görə minnətdarlığını bildirdi.

O, Azərbaycanda bu il keçirilmiş parlament seçkilərində Yeni Azərbaycan Partiyasının qələbəsi münasibətilə təbriklərini çatdırdı. Eyni zamanda, Azərbaycanın ev sahibliyi etdiyi COP29-un çox yüksək səviyyədə təşkil olunması ilə bağlı Prezident İlham Əliyevi təbrik edən Mövlud Çavuşoğlu bu tədbiri tarixi zirvə toplantısı kimi qiymətləndirərək, burada qəbul edilmiş qərarların böyük önəm daşıdığını vurğuladı.

Dövlətimizin başçısı da COP29-un yüksək səviyyədə təşkil olunduğunu və əhəmiyyətini qeyd edərək, Türkiyə Prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətinin həmin tədbirdə iştirakını bir daha yüksək qiymətləndirdi və bunun COP29-un önəminin daha da artırılması işinə töhfə verdiyini bildirdi. Prezident İlham Əliyev xeyli sayda dövlət və hökumət başçısının, qonaqların tədbirdə iştirakına toxundu və konfransın qərarların qəbul edilməsi baxımından çox uğurlu olduğunu dedi, COP29-un Azərbaycanın potensialını və liderlik qabiliyyətini bir daha bütün dünyaya nümayiş etdirdiyini vurğuladı. Dövlətimizin başçısı bunun Türk dünyasının da növbəti bir uğuru olduğunu dedi.

Görüşdə ölkələrimiz arasında dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlərarası sahədə uğurla inkişaf etdiyi bildirilərək, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.

# 685 bələdiyyə üzrə...

## Ümumilikdə 8071 üzv seçiləcək

Müstəqil Azərbaycan mühüm ictimai-siyasi hadisə ərəfəsindədir. Mərkəzi Seçki Komissiyası (MSK) ölkəmizdə keçirləcək sayca altıncı bələdiyyə seçkilərinin vaxtını təyin edib. Seçkilər 2025-ci il yanvarın 29-da keçiriləcək.

Qarşıdan gələn seçkilərin xüsusi bir özəlliyi ondan ibarətdir ki, bu seçkilər müstəqil Azərbaycanın tarixində ilk dəfə ölkənin bütün ərazisində keçirləcək. Otuz il ərzində Ermənistanın işğalı altında olan ərazilərimizdə seçkilərin keçirilməsi mümkün olmurdu. 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazanılan möhtəşəm qələbələrimizdən sonra cari ildə ilk dəfə ölkənin bütün ərazisində böyük uğurla prezident və parlament seçkiləri baş tutdu. İndi isə növbə bələdiyyə seçkilərinə çatıb.

### MSK hazırlıq tədbirlərini davam etdirir

**“Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında” və “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” qanunlarda əlavə və dəyişikliklər edilib. Son olaraq Prezident İlham Əliyev “Bələdiyyələrin statusu haqqında” və “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununu təsdiqləyib**

Ölkə üzrə qarşıdan gələn seçkilərə ciddi hazırlıq görülür. MSK tərəfindən seçkilərin yüksək səviyyədə təşkil olunması üçün müvafiq prosedur qaydaları müəyyənləşdirilir. Mərkəzi Seçki Komissiyasının dekabrın 2-də keçirilən növbəti iclasında seçkilərlə bağlı daha bir neçə mühüm məsələlər müzakirə olunub. Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən verilən məlumata əsasən, əvvəlcə Komissiyanın noyabrın 26-da və 27-də keçirilmiş iclaslarının protokolları təsdiq edilib.

Sonra 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb. Komissiya üzvlərinin müzakirəsindən sonra sözügedən siyasi partiya tərəfindən təqdim olunan şəxslərin səlahiyyətli nümayəndələr kimi qeydə alınmasına qərar verilib.

İclasda daha sonra bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib.

Xatırladaq ki, 6-cı bələdiyyə seçkilərinin vaxtı MSK-nın Məzahir Pənahovun sədrliyi ilə 2024-cü il noyabrın 27-də keçirilən iclasında müəyyənləşdirilib. Eyni zamanda, həmin iclasda “Azərbaycan Respublikasında bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim planı”nın hər bir hissəsi ayrıayrılıqda oxunub və müzakirə olunaraq təsdiq edilib. İclasda qarşıdan gələn bələdiyyə seçkilərində vətəndaşların seçki hüquqlarını pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması, habelə vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması məqsədilə Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun yaradılmasına dair məsələyə də baxılıb, Komissiya üzvləri və Katibliyin əməkdaşları da daxil olmaqla, Mərkəzi Seçki Komissiyası nəzdində 9 nəfərdən ibarət tərkibdə ekspert qrupu yaradılıb. Dairə seçki komissiyaları nəzdində Seçki Məcəlləsinə uyğun şəkildə 3 nəfərdən ibarət ekspert qruplarının yaradılması isə seçki dairələrinin dairə seçki komissiyalarına həvalə edilib.

### İslahatlar zamanın tələbidir



Bütövlükdə, ölkəmizdə bələdiyyə seçkilərinin keçirilməsinin və yerli özünüidarəetmə orqanlarının formalaşdırılmasının hüquqi çərçivələri bəlli olsa da, zaman ötdükcə və yeni reallıqlar yarandıqca bu sahədə də qarşıya yeni çağırışlar çıxır və islahatlara ehtiyac yaranır. Bələdiyyələr ölkə üzrə vətəndaşlara yaxın olan bir icra strukturudur. Deməli, onların fəaliyyətlərinin səmərəliliyini artırmaqla son nəticədə ölkənin inkişafına daha sanballı töhfə vermək, eyni zamanda, vətəndaş məmnunluğunu yüksəltmək mümkündür. Azərbaycanın dövlət siyasətinin mərkəzində məhz inkişaf və sosial rifah amili dayanır. Bələdiyyələr də fəaliyyətlərində vətəndaş iştirakçılığını geniş miqyasda təmin etməklə bu siyasətdə fəal rol almalıdırlar. Son vaxtlarda hüquqi bazanın möhkəmləndirilməsi, bələdiyyələrin formalaşdırılması ilə bağlı yeniliklərin qüvvəyə minməsi də məhz bu məqsədə xidmət edir. Xəbər verildiyi kimi, “Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında” və “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” qanunlarda əlavə və dəyişikliklər edilib. Son olaraq Prezident İlham Əliyev “Bələdiyyələrin statusu haqqında” və “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununu təsdiqləyib. Şübhə yoxdur ki, bəhs olunan dəyişikliklər bələdiyyələrin funksional bir qurum kimi fəaliyyətinə müsbət təsir göstərəcək və onların çevikiyini artıracaq.

### Ölkə üzrə hansı sayda bələdiyyələr formalaşdırılacaq?

**Bələdiyyələr ölkə üzrə vətəndaşlara yaxın olan bir icra strukturudur. Deməli, onların fəaliyyətlərinin səmərəliliyini artırmaqla son nəticədə ölkənin inkişafına daha sanballı töhfə vermək, eyni zamanda, vətəndaş məmnunluğunu yüksəltmək mümkündür. Azərbaycanın dövlət siyasətinin mərkəzində məhz inkişaf və sosial rifah amili dayanır. Bələdiyyələr də fəaliyyətlərində vətəndaş iştirakçılığını geniş miqyasda təmin etməklə bu siyasətdə fəal rol almalıdırlar**

Müvafiq qanunlara edilən dəyişikliklərə əsasən, ölkə üzrə sonuncu bələdiyyə seçkilərinin keçirildiyi ildən sonrakı dörd ilin son iki ili ərzində əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələr sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla digər bələdiyyələrlə birləşdirilir. Nəticədə, bələdiyyələrin sayı 3 dəfəyə yaxın azaldılaraq 1450-dən 685-ə endiriləcək. Struktur dəyişikliyi nəticəsində 2025-ci ildən təxminən əvvəlki mövcud olan 800-ə yaxın bələdiyyə hüquqi statusunu itirmiş olacaq. MSK-nın sədri Məzahir Pənahovun verdiyi məlumata əsasən Azərbaycanda 685 bələdiyyə üzrə ümumilikdə 8071 üzv seçiləcək.

*Mübariz FEYİZLİ*

Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu

# Qanuna ziddir!

## Azərbaycan Milli QHT Forumu İctimai şuraların formalaşdırılmasında pozuntulara və üzvlükdən sui-istifadə hallarına dair bəyanat yayıb

Azərbaycan Milli QHT Forumu İctimai şuraların formalaşdırılmasında pozuntulara və üzvlükdən sui-istifadə hallarına dair bəyanat yayıb.

Bəyanatda deyilir: “Azərbaycan Milli QHT Forumu bir sıra dövlət qurumları, xüsusilə yerli icra hakimiyyəti orqanları yanında İctimai şuraların formalaşdırılmasında kobud pozuntu hallarını müşahidə edir. Bəzi hallarda yerlərdə bir sıra qurumlar seçkili təsisat olan İctimai şuralara təyinat əsasında tərkib formalaşdırır, hətta buna dair daxili sərəncamlar imzalayır”. Azərbaycan Milli QHT Forumu bu cür halların Azərbaycan Respublikasının “İctimai iştirakçılıq haqqında” Qanununa zidd olduğunu bəyan edir.

“Apardığımız təhlillər göstərir ki, hazırda mərkəzi icra hakimiyyəti qurumları üzrə mövcud İctimai şuraların təxminən 25%-i eyni şəxslərdən ibarətdir. Azərbaycan əleyhinə iş aparan bir sıra xarici donorların, Qərb səfirliklərinin təsiri altında olan şəxslərin dövlət qurumları yanında İctimai şuralara müxtəlif üsullarla düşməsi, bu statusdan sui-istifadə etməsi, mandatlarından kənar fəaliyyət halları, özlərini “qrant vasitəçiləri” kimi apararaq məlumatlar toplaması barədə siqnallar narahatlıq doğurur. Bəzi Qərb səfirliklərinin Azərbaycanda İctimai şuralarda təmsil olunan QHT-ləri əlé almağa çalışaraq, onlara özlərinin balansında olan nəqliyyat vasitələrini bağışlamaq istəkləri barədə də məlumatlar var.

Azərbaycan Milli QHT Forumu hesab edir ki, İctimai şuraların “İctimai iştirakçılıq haqqında” Qanunun tələblərinə uyğun fəaliyyəti təmin olunmalı, İctimai şuralar yalnız ictimai maraqlara xidmət etməli, ictimai nəzarəti təmin etməli, bu şuraların tərkibinin formalaşması və fəaliyyətində sui-istifadə halları aradan qaldırılmalıdır”, - deyə bəyanatda bildirilib.

# Vergi yükünün azaldılması, investisiya mühitinin yaxşılaşdırılması...

## Qanunvericilikdə aparılan dəyişikliklər biznesin və investorların mənafeyinə xidmət edir



**Məlum olduğu kimi Prezident İlham Əliyev “ Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Qanunu təsdiqləyib. 2025-ci il yanvarın 1-dən qüvvəyə minəcək yeni dəyişikliklərin əsas istiqamətləri sahibkarlıq və investisiya fəaliyyətinin təşviqi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergi nəzarəti mexanizminin və vergi inzibatçılığının təkmilləşdirilməsi, beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yaxşılaşdırılmasını nəzərdə tutur. Bütün bu hədəflər isə ölkəmizin dayanıqlı, inklüziv və özəl təşəbbüslərə arxalanan iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün mövcud potensialın daha da gücləndirilməsinə xidmət edir. Qeyd edək ki, 2025-ci ilin dövlət büdcəsi layihəsində gəlirlər üzrə siyasətin əsas istiqamətlərində vergi yükünün optimallaşdırılması, sahibkarlığın dəstəklənməsi və strateji sahələrə investisiyaların təşviqi, vergi və gömrük inzibatçılığı mexanizmlərinin təkmilləşdirilməsi və ekoloji təmiz nəqliyyat vasitələrinin dövriyyəsinin artırılması kimi bəndlər nəzərdə tutulub.**

### Biznesin vergi yükünün azaldılması

Vergi qanunvericliyinə edilmiş dəyişikliklər bir neçə istiqamətdə təsnifləşdirilə bilər. İlk istiqamət sahibkarlıq fəaliyyətinin təşviqi yolu ilə biznes icmasının vergi yükünün azaldılması, investisiya mühi-

**2025-ci il yanvarın 1-dən qüvvəyə minəcək yeni dəyişikliklərin əsas istiqamətləri sahibkarlıq və invesitisiya fəaliyyətinin təşviqi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergi nəzarəti mexanizminin və vergi inzibatçılığının təkmilləşdirilməsi, beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yaxşılaşdırılmasını nəzərdə tutur. Bütün bu hədəflər isə ölkəmizin dayanıqlı, inklüziv və özəl təşəbbüslərə arxalanan iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün mövcud potensialın daha da gücləndirilməsinə xidmət edir**

tinin yaxşılaşdırılması, eləcə də dövlət - özəl sektor tərəfdaşlığının müasir çərçivəsinin yaradılmasıdır. Bu hədəf üzrə vergi təşviqlərinin verilməsi nəzərdə tutulur. Təşviqlər bərpa olunan enerji mənbələrindən istifadə sahəsində həyata keçirilən layihələrə investisiya qoyuluşunu stimullaşdırmaq, uzunmüddətli dövrdə dövlətin maliyyə yükünü azaltmaq, istehlakçılar üçün tariflərin aşağı salınmasını və daxili istehsalın dəstəklənməsi məqsədilə vergi aza-

dolmalarını əhatə edir. Bu istiqamətin digər bəndi kimi teatr, kino, muzey və simfonik orkestr fəaliyyəti üzrə vergi güzəştlərinin verilməsidir. Məqsəd qeyd edilən hər bir sahədə dövriyyələrin şəffaflaşdırılması və gəlirliliyin artırılmasıdır.

Vergi Məcəlləsində dəyişikliklərin digər istiqaməti 2025-ci il yanvarın 1-dən müddəti bitən bir sıra güzəştlərin yenidən uzadılmasıdır ki, bu da birbaşa yerli istehsal və emal sektorlarında təmsil olunan biznes sektorunun mənafeyinə xidmət edir. Belə ki, kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılması və həmin məhsulların qiymətlərinin artımının qarşısını almaq məqsədilə onların satışı üzrə ƏDV-nin ticarət əlavəsindən hesablanması rejiminin tətbiqi müddəti yenidən uzadılacaq. Bundan başqa, sahibkarlıq fəaliyyətinin, rəqabətədavamlı neft məhsulların

### ƏDV güzəştləri ilə bağlı əsas istiqamətlər

istehsalının inkişafı üçün lazımi şəraitin yaradılması və daxili bazarın qorunması məqsədilə iri neft emalı zavodlarının modernləşdirilməsi işləri nəzərə alınaraq onlar tərəfindən avadanlıqların və materialların idxalı ƏDV-dən azad olunacaq. Bu, yanacaq bazarında əlverişli qiymət tariflərinin tənzimlənməsində mühüm rol oynayacaq. Ölkə ərazisində istehsal olunan avtobusların satışının, habelə təsdiqedici sənəd əsasında istehsalı məqsədilə avtobusların ehtiyat hissələrinin idxalı da ƏDV-dən azad olunur. Həmçinin tibb turizminin inkişafı üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə göstərilən tibbi xidmətlərə görə “tax-free” rejimində ƏDV-nin geri qaytarılması, sənaye məhəllələrinin istifadəsində olan torpaq sahələri və əmlaklar üzrə vergi azadolunması da nəzərdə tutulub.

ƏDV ilə bağlı güzəşt paketində digər bir bölmə qeyri-rezidentin sifarişi əsasında gəmiçilik müəssisələri tərəfindən dəniz və su nəqliyyatı vasitələrinin, hidrotexniki qurğuların təmiri üzrə xidmətlərin sıfır dərəcə ilə vergiyə cəlb edilməsidir. Bundan başqa, xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri 2025-ci ilin yanvarın 1-dən etibarən 2 il müddətinə yol vergisindən azad ediləcək. Bu dəyişiklik investisiya mühitinin təkmilləşdirilməsi məqsədi daşımaqla, logistika şirkətlərinin xərclərinin azalması fonunda malların qiymət artımın qarşısının azalmasına səbəb ola bilər.

### Vergitutma bazasının genişləndirilməsi

Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərin ikinci istiqaməti vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi və vergi-




tutma bazasının genişləndirilməsi ilə bağlıdır. Həmin istiqamət üzrə qiymətli daşların və metalların, onlardan hazırlanmış məmulatların, mədəniyyət məhsullarının, daşınar əmlakın alqı-satqısı üzrə ödənişlərin nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılacaq. Həmin əməliyyatları aparan şəxslərə maliyyə sanksiyası tətbiq olunacaq.

Vergi qanunvericliyində aparılan dəyişikliklərin növbəti istiqaməti ölkəmizin beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yaxşılaşdırılması məqsədi daşıyır. Bu istiqamətində əsas dəyişikliklər isə transmilli şirkətlər qrupuna daxil olan müəssisə tərəfindən bildirişin vergi orqanına təqdim olunması tələbinin müəyyənləşdirilməsi və bu tələbin pozulmasına görə maliyyə sanksiyasının tətbiqidir. Eləcə də, nəzarət olunan xarici əməliyyatlar və müəssisələr üzrə sanksiyanın artırılması, transfer qiyməti ilə bağlı sənədləri və məlumatları vergi orqanına vaxtında təqdim etməyən vergi ödəyicilərinə maliyyə sanksiyasının tətbiqi nəzərdə tutulur.

Ümumilikdə, cəmi dəyişikliklərin fəlsəfəsi mütərəqqi vergi inzibatçılığını formalaşdırmaq, biznes mühitinin təkmilləşdirilməsini dəstəkləmək və sosial rifaha töhfə verməkdir.

*ELBRUS CƏFƏRLİ*

# İqlim ailəsinin növbəti yüksək etimadı

## Azərbaycan COP16-nın Şərqi və Mərkəzi Avropa regional qrupunun sədri və Büro üzvü seçilib

**Dekabrın 2-13-də Səudiyyə Ərəbistanında keçirilən BMT-nin Səhralaşmaya qarşı mübarizə Konvensiyasının 16-cı Tərəflər Konfransı (COP16) çərçivəsində Azərbaycan yekdilliklə təmsil olunduğu Mərkəzi və Şərqi Avropa regional qrupuna iki il müddətinə sədr və COP16 Bürosuna üzv seçilib. Sədrlik dövründə ölkəmiz, həmçinin qurumun Tərəflər Konfransının vitse-prezidentliyini də həyata keçirəcək. Adıçəkilən Qrupa Azərbaycanla birlikdə Şərqi və Mərkəzi Avropadan 15 dövlət daxildir. Ölkəmizin bu mötəbər təsisatın Büro üzvü və Mərkəzi və Şərqi Avropa regional qrupuna sədr seçilməsi növbəti böyük etimadın və hörmətin təzahürüdür. Bu, COP16 beynəlxalq iqlim ailəsinin ölkəmizin qlobal tədbirlərə ləyaqətli və xüsusi peşəkarlıq keyfiyyəti ilə ev sahibliyi etmək qabiliyyətinə verilən ali dəyərdir. 10 gün əvvəl COP29 sammitini mütəşəkkil təşkilatçılıq qabiliyyəti və məharəti ilə dünya COP hərəkatına təqdim edən Azərbaycanın daha bir uğurudur. 2024-cü ili “Yaşıl dünya naminə həmrəylik” ili kimi elan edərək dünyada nümunəvi ekoloji niyyət və əməlləri ilə fərqlənən Azərbaycan dünyanı yaşıl həmrəylik alyansında sıx birləşdirməklə əsil etibarlı tərəfdaş imicini möhkəmləndirib. Bu baxımdan, ölkəmiz COP16 toplantısında da layiqli yerini tutmaqdadır.**

### Su qıtlığı, ərzaq çatışmazlığı və torpaqların deqradasiyasına qarşı alyans

İqlim dəyişməsi su qıtlığı, ərzaq məhsullarının çatışmazlığı, torpaqların deqradasiyası və insanların yerdəyişməsi kimi mənfi təsirləri artırmaqdadır. Bu dəyişmələr ən həssas olan regionlarda münaqişə və qeyri-sabitlik üçün katalizator rolunu oynayır və qlobal problem olaraq dünya ölkələrinin narahatlığını artırır. Bu məqsədlə BMT-nin Səhralaşmaya qarşı mübarizə Konvensiyasının 16-cı Tərəflər Konfransı qeyd edilən fəsadların aradan qaldırılmasında əsas aparıcı platforma rolunu oynayır.

2001-ci ildə COP5 çərçivəsində təsis edilmiş BMT-nin Səhralaşmaya qarşı mübarizə Konvensiyasının Şərqi və Mərkəzi Avropa qrupunun Regional Fəaliyyət Proqramı 2015-ci ildə təsdiqlənib. Qrup çərçivəsində regional fəaliyyətin gücləndirilməsi, biliklərin artırılması, ekoloji kənd təsərrüfatı və sair prioritet sahələr müəyyən olunub. On iki regionun təmsil olunduğu COP16 Bürosunun əsas vəzifələri isə COP qərarlarının həyata keçirilməsinə nəzarətin və gələcək COP iclasları üzrə işlərin təşkilidir. COP Bürosu, həmçinin COP sessiyaları arasında həyata keçirilən öhdəliklərin icrasına nəzarət edir.

UNCCD
COP16
Riyadh | 2024

Qlobal su qıtlığı, ərzaq məhsullarının çatışmazlığı, torpaqların deqradasiyası və digər problemlər ...liyyət mexanzimlərinin əsaslarını yaradıb. Qeyd edək ki, ötən gün Ər-Riyadda keçirilən

### Bakı Çağırışı sülhməramlı iqlim fəaliyyətini təşviq edir

Azərbaycan üçün də olduqca həssas mövzudur və ölkəmiz bu istiqamətdə bir neçə ildir ki, qlobal koalisiya ilə fəal çalışır. COP29 sammitində ölkəmiz səhralaşma və su qıtlığının qarşısının alınması istiqamətində öz prinsipial qərarları ilə bir daha dünya ölkələrinin diqqətini çəkdi. Noyabrın 15-də COP29 çərçivəsində iqlim dəyişməsi, münaqişə və humanitar ehtiyaclar kimi aktual problemlərin həllinə yönəlmiş mühüm təşəbbüs - Sülh, Yardım və Bərpa üçün İqlim Fəaliyyətinə dair Bakı Çağırışına (BCCAP) start verildi. Bu, iqlim təsirlərinə və münaqişələrə həssas olan ölkələrə, xüsusən də humanitar ehtiyacları olanlara dəstəyin artırılmasına yönəlmiş strategiyanı formalaşdırmaq üçün yeni platformanın təməlinin qoyulması demək idi. Dünya miqyasında şimal və cənub ölkələrinin nazir və hökumət nümayəndələrini bir araya gətirən Bakı Çağırışı iqlim və sülh təşəbbüsləri əsasında konkret, həll yönümlü cavabların işlənib hazırlanması üçün yol xəritəsini də müəyyən etdi. Həmin platforma çərçivəsində Bakı İqlim və Sülh Fəaliyyəti Mərkəzi təsis edildi ki, bu da məhz COP29-un yeni uğuru oldu.

Beləliklə, sülhməramlı iqlim fəaliyyətini təşviq edən Azərbaycan COP16 ailəsi üçün həm də yeni fəa-

COP16 çərçivəsində görüşdə ölkəmizin ekoloji təşəbbüskarlığı bir daha yüksək qiymətləndirilib. COP29-un prezidenti Muxtar Babayevin ötən gün Səudiyyə Ərəbistanının xarici işlər naziri və iqlim üzrə elçisi Adel Əl-Cubeyr ilə görüşündə Azərbaycanın COP16-nın Büro üzvü və Regional Qrup rəhbəri kimi qlobal iqlim dəyişikliyinə davamlılıq sahəsində yeni uğurlara imza atacağına inam ifadə olunub. Bu, Azərbaycanın regional sədr ölkə kimi qlobal birlik və əməkdaşlıq ruhunu daha da möhkəmləndirəcəyindən xəbər verir.

*ELBRUS*

# 10-cu iclas Bakıda keçiriləcək

## Azərbaycan, Türkiyə və Gürcüstan parlamentarilərinin görüşü əlaqələrin güclənməsinə xidmət edir

Azərbaycanın xarici siyasətində qonşu ölkələrlə fəal əməkdaşlıq mühüm yer tutur. Qonşu ölkələrlə əlaqələrin inkişafında üçtərəfli platforma çərçivəsində keçirilən görüşlər və imzalanan sənədlər xüsusi vurğulanmalıdır.

Qeyd edək ki, Azərbaycan, Türkiyə və Gürcüstan arasında üçtərəfli platforma uzun müddətdir mövcuddur. Hər üç ölkənin liderlərinin, xarici işlər və müdafiə nazirlərinin görüşləri mütəmadi olaraq keçirilir. Eləcə də belə görüşlər parlament müstəvisində də reallaşdırılır. Azərbaycan, Gürcüstan və Türkiyə arasında təməli illər öncə qoyulan uğurlu siyasi, iqtisadi əməkdaşlıq Avropa və Asiya qitələrinin qovuşuğunda yerləşən Cənubi Qafqaz regionunun strateji əhəmiyyətini xeyli artırıb. Bakı ilə Ankaranın təşəbbüsləri, o cümlədən sülh diplomatiyası bölgədə sabitlik, təhlükəsizlik və əməkdaşlıq üçün etibarlı zəmin formalaşdırır. Postmüharibə dövründə bölgədə qlobal əhəmiyyətli yeni geostrateji konfiqurasiyanın formalaşmasında Azərbaycan-Türkiyə müttəfiqliyi aparıcı faktor kimi çıxış edir. Qonşu Gürcüstan da iki dövlətlə birgə addımlayaraq regionun strateji gələcəyini birlikdə inşa etmək istəyini və niyyətini aydın ifadə edir.

Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı sıx üçtərəfli siyasi, iqtisadi əlaqələrdən doğan birgə layihələrin gerçəkləşməsi bölgənin inkişafında, sabitliyinin qorunmasında və dünyaya inteqrasiyasında aparıcı faktora çevrilib. Nəhəng enerji şirkətlərinin də iştirak etdiyi Azərbaycan, Gürcüstan və Türkiyənin enerji sahələri üzrə əməkdaşlığı öz səmərəliliyinə görə dünyada nümunəvi təcrübələrdən biri hesab oluna bilər. Azərbaycan, Gürcüstan və Türkiyənin enerji sahəsində əməkdaşlığı həm region dövlətlərinin iqtisadi, siyasi və təhlükəsizlik maraqlarına, həm də Avropa İttifaqı ölkələrinin enerji təhlükəsizliyini təmin etmək siyasətinə uyğundur. Xatırladaq ki, üç ölkənin əməkdaşlığı ilə 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi reallığa çevrilib. Bundan əlavə, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçtərəfli strateji əməkdaşlığın səmərəli nəticələridir.



Yeri gəlmişkən, qeyd edək ki, dekabrın 3-də Türkiyə Böyük Millət Məclisinin (TBMM) binasında Türkiyə, Azərbaycan və Gürcüstan parlamentlərinin xarici əlaqələr komissiyalarının IX üçtərəfli iclası keçirilib. İclasda Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun başçılıq etdiyi nümayəndə heyəti iştirak edib. Müzakirələrdə Türkiyəni TBMM Beynəlxalq əlaqələr komissiyasının sədri Fuat Oktayın rəhbərlik etdiyi nümayəndə heyəti, Gürcüstanı isə parlamentin xarici əlaqələr komissiyasının rəhbəri Nikoloz Samxaradzenin başçılıq etdiyi bir qrup deputat təmsil edib.

İclası açan Fuat Oktay Azərbaycan və Gürcüstanla əlaqələrin daha da dərinləşəcəyinə ümid etdiyini bildirib və Cənubi Qafqazın Türkiyə üçün əhəmiyyətini vurğulayıb. Onun sözlərinə görə, Türkiyə, Azərbaycan və Gürcüstan bütün istiqamətlər üzrə əməkdaşlığı möhkəmləndirməkdə qərarlıdır. F.Oktay ölkəsinin Qara və Xəzər dənizləri arasında nəqliyyat və logistika şəbəkələrinin genişləndirilməsinə, orta və ali təhsil, birgə tədqiqat mərkəzlərinin yaradılması və s. sahəsində qarşılıqlı fəaliyyətin inkişafına töhfə verməyə hazır olduğunu qeyd edib.

Türkiyə parlament komissiyasının rəhbəri xüsusən Bakı-Tbilisi-Qars dəmir yolunun ötürücülük qabiliyyətinin genişləndirilməsi üzrə işlərin tezliklə başa çatdırılacağına ümid etdiyini bildirib. Üç ölkə arasında iqtisadi əlaqələrin inkişafına gəlincə, F.Oktay bu ölkələrin birgə ticarət dövriyyəsinin həcminin ildə 12 milyard dollara çatdığını qeyd edib: “Türkiyə hakimiyyəti iqtisadi əlaqələrin inkişafına mümkün töhfə verməyə hazırdır”. Regional proseslərin müzakirəsi kontekstində F.Oktay Ukraynada müharibənin diplomatik yollarla dayandırılmasının vacibliyini vurğulayıb.

Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Türkiyə və Gürcüstanla əlaqələri “nümunəvi” adlandırıb və üç ölkə arasında əməkdaşlığın qlobal gündəm üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirib. O, üç ölkə liderinin dövlətlərarası əməkdaşlığın möhkəmlənməsinə verdiyi töhfəni vurğulayıb. “Heç də təsadüfi deyil ki, bu ilin martında Azərbaycan, Gürcüstan və Türkiyənin xarici işlər nazirləri arasında görüş keçirilib, sentyabrda isə müdafiə nazirləri səviyyəsində danışıqlar aparılıb. Əlaqələrin inkişafına dair konkret addımlar müzakirə olunur”, - deyən Milli Məclisin komitə sədri Bakı, Ankara və Tbilisi arasında parlamentlərarası dialoqun inkişaf etdirilməsinin zəruriliyini qeyd edib.

S.Seyidov bildirib ki, Türkiyədən və Gürcüstandan olan həmkarlarını Azərbaycanda COP29-un yekunları barədə məlumatlandırıb, region liderlərinin Bakıda keçirilən iqlim müzakirələrində iştirakını yüksək qiymətləndirib. Milli Məclisin komitə sədri Ankara və Tbilisi ilə nəqliyyat sektorunda əlaqələrin daha da dərinləşəcəyinə ümidvar olduğunu bildirib.

Gürcüstan parlamentinin Xarici əlaqələr komissiyasının rəhbəri Nikoloz Samxaradze öz növbəsində Cənubi Qafqazda sabitliyin və sülhün möhkəmləndirilməsi naminə Azərbaycan və Türkiyə ilə qarşılıqlı fəaliyyətin vacibliyini vurğulayıb.

Müzakirələrin yekunu olaraq üç ölkənin parlament komissiyalarının 10-cu iclasının Azərbaycanda keçirilməsi qərara alınıb.

*Nardar BAYRAMLI*

# Azərbaycançılıq dövlətimizin əsas sütunudur!

## Hər kəs bu ideologiya ətrafında sıx birləşməlidir...

Davamlı şəkildə aparmalı olduğumuz siyasətin tərkib hissələrindən biri azərbaycançılıq ideologiyasının təbliğ edilməsidir. Bu ideya dövlətçiliyimiz, mədəniyyətimiz, dilimiz və tariximizlə bağlı bütünlük təşkil edən, xalqımızın milli kimliyini qoruyub inkişaf etdirən bir anlayışdır. Bir sözlə, milli ideologiya olan azərbaycançılıq həmrəylik, vətənpərvərlik, xalqın öz tarixi və mədəniyyətinə hörmət və sevgi kimi dəyərləri əhatə edir.

Ölkəmizdə yaşayan vətəndaşlarımızın dini, etnik mənsubiyyətindən asılı olmayaraq, hamının Azərbaycan adlı vətəni var. Belə ki, azərbaycançılığın məzmunca mahiyyətini müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların üzvi şəkildə vəhdəti təşkil edir. Lakin azərbaycançılıq Azərbaycanın ərazisində yaşayan xalqın həmrəyliyi ilə məhdudlaşmır. Bu ideologiya həm də Azərbaycanın müstəqilliyini arzulayan, onun güclənməsini istəyən insanları birləşdirir.

Azərbaycançılıq ideyasının təbliği, həmçinin dövlətin, vətəndaş cəmiyyətinin birgə əməkdaşlığını tələb edir. Bu, milli həmrəyliyi təmin etmək və ölkə daxilində hər hansı sosial və milli parçalanmanın qarşısını almaq baxımından vacibdir. Azərbaycançılıq yalnız Azərbaycan xalqının deyil, eyni zamanda, bu torpaqda yaşayan bütün etnik və dini qrupların gələcəyini düşünərək, birgə inkişaf və firavanlıq üçün mühüm bir vəsait olaraq ortaya çıxır.

### İdeologiyamıza qarşı çıxan qüvvələr var

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən Gənclərin Təşəbbüsünə və İnkişafına Dəstək İctimai Birliyinin və Diaspor İnformasiya Mərkəzinin sədri Toğrul Allahverdili bildirib ki, Azərbaycançılıq ideologiyası illərdir ölkəmizin əsas sütunlarından biridir. O, qeyd edib ki, Azərbaycançılıq ideyasının təməl prinsiplərindən biri Azərbaycan xalqının tarixini və mədəniyyətini gələcək nəsillərə çatdırmaq və bu dəyərləri təbliğ etməkdir: “Bu ideya, həmçinin Azərbaycanın multikultural və çoxmillətli cəmiyyətini gücləndirməyə, müxtəlif etnik və dini qrupların birgə yaşaması və əməkdaşlığını təşviq etməyə xidmət edir. Azərbaycançılıq yalnız yerli mədəniyyətin qorunması ilə kifayətlənmir, eyni zamanda, Azərbaycanın dünyaya açılan, beynəlxalq aləmdə tanınan bir dövlət kimi mövqeyinin gücləndirilməsini də önə çıxarır.

Əsası Heydər Əliyev tərəfindən qoyulan bu ideologiya dövlətimiz tərəfindən davamlı olaraq inkişaf etdirilir. Bu ideologiyanın təbliği istiqamətində silsilə tədbirlər həyata keçirilir, sözügedən sahədə davamlı nailiyyətlərin əldə olunması üçün ölkənin aparıcı beyin mərkəzləri, qeyri-hökumət təşkilatları və mediası durmadan çalışır. Lakin təəssüflə qeyd etməliyik ki, bu ideologiyaya qarşı olan qüvvələr də mövcuddur”.



### Azərbaycançılıq gələcəyimizin mayasıdır...

Ekspert qeyd edib ki, bu qüvvələr istər xaricdən, istərsə də ölkəmizin içindəki “sapı” bizdən olanlar tərəfindən maliyyələşdirilir: “Onlar həmin anti-milli qruplardır ki, Azərbaycanın suyunu içib, çörəyini yeyib gənclərimizin bu ideologiya ətrafında birləşməsinə mane olmağa çalışırlar. Lakin nə olursa olsun, Azərbaycançılıq ideologiyası dövlətimizin əsas sütunu və gələcəyimizin mayasıdır. Azərbaycançılıq ideologiyasının inkişafı davamlı olmalı, hər bir azərbaycanlı, tutduğu mövqeyindən, siyasi baxışından və yaşam tərzindən asılı olmayaraq, bu ideologiyanın ətrafında sıx birləşməlidir”.

### Milli məfkurəmizin əsas istiqaməti

T.Allahverdilinin sözlərinə görə, ürək ağrısı ilə qeyd etməliyik ki, bəzi qüvvələr tərəfindən sosial şəbəkələrdə bu ideologiyanın əleyhinə təbliğat aparılır: “Bəzi “həmvətənlərimiz” bu yöndə atılan addımlarda səfərbər olaraq Qərbin çeynənmiş dəyərlərini qəbul və təbliğ edərək, milli dəyərlərimizi və ailə institutunu məhvə aparan təbliğatın maşasına çevriliblər. Sosial şəbəkələrdə Azərbaycançılıq ideologiyasını məsxərəyə qoyanlar unutmasın ki, bu ideologiya Azərbaycan gəncliyinin qüruru, şərəf və ləyaqəti, milli məfkurəmizin əsas istiqamətidir.

Kim nə deyirsə desin, biz tutduğumuz istiqamətdə daim addımlayacağıq. Bizlər Azərbaycançılıq ideologiyası ətrafında birləşərək minlərlə şəhid vermiş dövlətin və millətin varisiyik. Azərbaycançılıq ideologiyası uğrunda nə qədər qardaşlarımız şəhid olub. Biz bu ideologiya ətrafında illərimizi və aylarımızı qurban vermişik. Bir sözlə, milli ideologiyamızın təbliğində durmadan çalışmalı, gənclərimizə təbliğatı gücləndirməliyik”.

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycançılıq ideyasının təbliği” istiqaməti üzrə hazırlanmışdır

# Ermənistan BMT-də ifşa olundu

## Bu ölkədə irqi ayrı-seçkilik, ekstremizm və terrorizm dövlət siyasəti səviyyəsindədir

**Ermənistanda irqi ayrı-seçkilik, ekstremizm və terrorizm dövlət siyasəti səviyyəsindədir. Ermənilər tarixən azərbaycanlılara və türklərə qarşı düşmənçilik siyasəti yürüdüblər. Hazırda xarici ölkələrdəki erməni diasporları da bu zərərli fəaliyyətini davam etdirir. İrqi ayrı-seçkilik, ksenofobiya, etnik nifrət, “ASALA” terrorçularından “qəhrəman” obrazının yaradılması, terrorizm və ekstremizmin ideoloji təbliğatı bu ölkədə davam etməkdədir. Bir neçə il öncə Ermənistanın sabiq prezidenti Robert Köçəryan erməni və Azərbaycan xalqlarının etnik uyğunsuzluğu barəsində rasizm meylli fikirlər söyləmiş, Serj Sarkisyan isə erməni gəncləri qarşısında çıxış edərək, ermənilərin “üstün genetik xüsusiyyətləri” və qonşu dövlətləri nəzərdə tutaraq, erməni gəncləri qarşısında “tarixi erməni torpaqları”nı azad etmək kimi missiyanın durması barəsində çağırışlar etmişdi. Hazırda Nikol Paşinyanın da mövqeyi onlardan çox da fərqlənmir.**

### Zərərli ideologiyanın nəticələri

Ermənistanda dövlət səviyyəsində irqi ayrı-seçkilik, ekstremizm və terrorizm əsasında aparılan bu kimi ideoloji təbliğat, gənc nəsil, o cümlədən diaspordan olan gənclərin bu ruhda tərbiyə edilməsi və erməni apostol kilsəsinin yeparxiyasının da bu proseslərdə iştirakı bütün regionu ciddi potensial təhlükələr qarşısında qoyur. Belə “ideologiyanın” nəticəsidir ki, ermənilər son 200 ildə xalqımıza qarşı dəfələrlə soyqırımı törədib, indiki Ermənistandan azərbaycanlılar kütləvi qovulub, 30 il ərazində torpaqlarımızın bir hissəsi işğal altında saxlanılıb. İşğal dövründə həmin ərazilərdə hər şey tamamilə məhv edilib. Eləcə də tarixi, dini və mədəni abidələrimiz yerlə yeksan olunub. Məqsəd bu torpaqlardan Azərbaycan xalqının izini silmək idi.

Lakin Azərbaycan öz torpaqlarını işğaldan azad etməklə tarixi ədaləti bərpa etdi. Nə qədər paradoksal olsa da, işğalçı Ermənistan bu gün beynəlxalq müstəvidə ölkəmizə qarşı iddialar qaldırır. Bu iddialar sırasında irqi ayrıseçkilik, etnik təmizləmə və s. var. Halbuki, Ermənistanın konstitusiyasında ölkəmizə və Türkiyəyə qarşı ərazi iddiaları hələ də mövcuddur. Azərbaycanın çağırışlarına rəğmən, konstitusiyada dəyişikliklər edilmir.

### Məruzəçi: Ermənistanda azərbaycanlılara və türklərə qarşı nifrət mövcuddur

Erməni kimliyinin azlıqlara qarşı dözümsüzlüyə haqq qazandırmaq üçün istifadə olunduğunu bildirən məruzəçi Ermənistanda etnik və milli mənsubiyyətinə görə insanlara qarşı nifrət zəminində çıxışların olduğuna diqqəti çəkib və azərbaycanlılara və türklərə qarşı da bu cür çıxışların edildiyini vurğulayıb. Eyni zamanda, bir neçə gün öncə Azərbaycan əsilli Gürcüstan vətəndaşının Ermənistanda təcili eniş etmiş təyyarədən enməsinə icazə verilməməsi məsələsini qaldıraraq, erməni nümayəndə heyətindən bununla bağlı açıqlama istəyib.

Ermənistan nümayəndə heyətinin rəhbəri, xarici işlər nazirinin müavini Vahan Kostanyan vəziyyətdən çıxmağa çalışaraq, Ermənistan hakimiyyətinin üzləşdiyi çətinliklərdən bəhs edib.

### Erməni diplomat haqlı suallar qarşısında aciz qalıb

Artıq ermənilər beynəlxalq müstəvidə hər kəsi öz yalanlarına inandıra bilmir. Buna BMT-nin İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinin 114-cü sessiyası zamanı bir daha şahid olduq. Belə ki, sessiya çərçivəsində dekabrın 3-də Ermənistanın dövrü məruzəsinə baxılıb. Ermənistan üzrə məruzəçi Yeung Sık Yuen Yeung Kam Con Komitənin bu ölkədə irqçi təşkilatları və bu təşkilatlarda iştirakı kriminallaşdıran qanunvericiliyin olmadığından narahatlığını ifadə edib və son dövrlər ərzində nifrət zəminində baş vermiş cinayətlər barədə danışıb.



### Ermənistanda niyə azərbaycanlı yaşamır?

Eyni zamanda, digər çıxış edənlər Ermənistanın məruzəsində Azərbaycanla bağlı çox sayda iddiaların yer aldığına təəccüblənərək, Ermənistanda bir nəfər azərbaycanlının belə yaşamadığı halda sənəddə Azərbaycana bu qədər yer ayrılmasına aydınlıq gətirilməsini sorğu ediblər.

Vahan Kostanyan bu suala cavab verməkdə çətinlik çəkərək, azərbaycanlıların Ermənistanda yaşamadığını təsdiq edib, sənəddə Azərbaycanla bağlı yazılanların məruzənin mahiyyətinə uyğun olmayan təhlükəsizlik və siyasi vəziyyətlə “əlaqələndirməyə” çalışıb.

Göründüyü kimi, artıq ermənilər saxta iddialarını və yalanlarını həqiqət kimi qəbul etdirməyə çətinlik çəkirlər. Ona görə də, Ermənistan və erməni diaspor təşkilatları rasizm meyilli bu təhlükəli siyasətə son qoymalı, qonşu xalqlar və dövlətlərlə barışığa, sülhə xidmət edən siyasət yürütməlidir.

*Nardar BAYRAMLI*

# Yenilənmiş inflyasiya proqnozları nə vəd edir?

## Hökumət 2025-ci ildə də anti-inflyasiya tədbirlərini nəzarətdə saxlayacaq

Mərkəzi Bank (MB) yenilənmiş inflyasiya proqnozlarını açıqlayıb. Yeni gözləntilərə əsasən, 2024-cü və 2025-ci ildə illik inflyasiyanın hədəf diapazonu daxilində (4±2%) qalacaq. Cari il üzrə qiymət indeksi gözləntiləri ilin əvvəlində fərz edilmiş çərçivəyə uyğundur, sabit inflyasiya dəhlizi müşayiət edilib. 2024-cü ilin oktyabr proqnozu 5,1 faiz təşkil edib ki, bu da əvvəlki illə müqayisədə azalma deməkdir. Ümumilikdə, 2024-cü ilə dair illik inflyasiya proqnozunun strukturunda tənzimlənən qiymətlər 0,6 faiz bənd, dövlət istehlakı 0,42 faiz bənd, ev təsərrüfatlarının istehlakı 0,96 faiz bəndi, kənd təsərrüfatı istehsalçı qiymətləri 2,25 faiz bənd, ticarət tərəfdaşları üzrə 3,82 faiz bəndi artırıcı təsir göstərəcək. Bu isə orta illik 5 faiz çərçivəyə uyğun hesab edilir.

MB 2025-ci ilə inflyasiyanın oktyabr proqnozu 5,8 faiz təşkil edir. Növbəti ildə ehtimal edilən illik inflyasiyaya dövlət istehlakı 0,41 faiz bənd, ev təsərrüfatlarının istehlakı 1,6 faiz bənd, kənd təsərrüfatı istehsalçı qiymətləri 3,33 faiz bəndi, ticarət tərəfdaşları üzrə inflyasiya isə 2,42 faiz bənd artırıcı təsir göstərəcək. Nəticədə gələn il istehlak qiymətləri indeksi cari ildəki rəqəmlərlə təxmini eyniyyət təşkil edəcək.



### Dünyada baş verən geosiyasi və iqtisadi proseslər qiymətlərə təsir edir

İnflyasiya proqnozları ilə bağlı fərz edilən dəhliz bir sıra xarici və daxili inflyasiya amillərinin dəyişimindən asılı olaraq formalaşır ki, burada əsas amillər kimi manatın nominal effektiv məzənnəsi, tərəfdaş ölkələrdə inflyasiya prosesləri və qiymətləri dövlət tərəfindən tənzimlənən məhsul və xidmətlərin tarifləri rol oynayır. Qiymət indeksində başlıca risk balansı isə tərəfdaş ölkələrdə inflyasiyanın və dünya bazarında əmtəə qiymətlərinin dəyişkənliyindən asılıdır. Aparıcı iqtisadiyyatlarda monetar şəraitin sərt olaraq qalması qlobal inflyasiyanı azaldacaq amillərdən biridir. İnflyasiyanı artıra biləcək başlıca daxili risk isə yerli xərc amilləri, eləcə də məcmu tələbin izafi artımı ilə əlaqədardır. Bu səbəbdən ortamüddətli dövrdə büdcə xərclərinin genişlənməsi və kredit aktivliyinin artması inflyasiyaya təsirlərini artıra bilər.

**İnflyasiya proqnozları ilə bağlı fərz edilən dəhliz bir sıra xarici və daxili inflyasiya amillərinin dəyişimindən asılı olaraq formalaşır ki, burada əsas amillər kimi manatın nominal effektiv məzənnəsi, tərəfdaş ölkələrdə inflyasiya prosesləri və qiymətləri dövlət tərəfindən tənzimlənən məhsul və xidmətlərin tarifləri rol oynayır. Qiymət indeksində başlıca risk balansı isə tərəfdaş ölkələrdə inflyasiyanın və dünya bazarında əmtəə qiymətlərinin dəyişkənliyindən asılıdır**

Eyni zamanda, iqlim dəyişiklikləri və istehsal xərclərinin artımı kənd təsərrüfatı istehsalçı qiymətləri indeksi vasitəsilə inflyasiyaya təsir edə bilər.

İnflyasiya gözləntiləri sırasında xidmət sektorundakı qiymət dalğalanmaları da təsiredici rol oynayır. Real sektorun monitorinqinin nəticələrinə əsasən, cari ilin ötən dövrü ərzində sahələr üzrə ən yüksək qiymət artımı gözləntisi də məhz xidmət sektorunda qeydə alınıb. Ona görə də, növbəti aylarda xidmət sferasının tarazılıq əmsalı qiymət indeksində yenə də təsiredici funksiyasını davam etdirə bilər. Digər sektorlardan tikinti və ticarət üzrə gözləntilər də son 2 ayda mənfi zonada qalmaqda davam edib. Qeyri-neft sənaye sektorunda il ərzində dəyişkənlik müşahidə edilib və gözləntilərdə mənfi zonadan müsbət zonaya keçid alıb.

**Qeyri-neft sənaye sektorunda il ərzində dəyişkənlik müşahidə edilib və gözləntilərdə mənfi zonadan müsbət zonaya keçid alıb. İnflyasiya portfelində ən fundamental amillərdən biri olan xarici mühitin təsiri də qalmaqdadır. Belə ki, xarici mühitin yüksək həssaslığı, dünyada geosiyasi və geoiqtisadi vəziyyətin daha da gərginləşməsi, beynəlxalq logistika zəncirlərinin qeyri-ahəngdarlığı, bir çox ölkələrdə inflyasiyanın hədəf səviyyələrindən yuxarıda dövr etməsi yenə də müşayiət edilir**

İnflyasiya portfelində ən fundamental amillərdən biri olan xarici mühitin təsiri də qalmaqdadır. Belə ki, xarici mühitin yüksək həssaslığı, dünyada geosiyasi və geoiqtisadi vəziyyətin daha da gərginləşməsi, beynəlxalq logistika zəncirlərinin qeyri-ahəngdarlığı, bir çox ölkələrdə inflyasiyanın hədəf səviyyələrindən yuxarıda dövr etməsi yenə də müşayiət edilir. Rusiya-Ukrayna müharibəsinin yaratdığı şoklar, yaxın Şərqdə baş verən münaqişələr çox güman ki, hələ bir müddət davam edəcək, nəticədə bu hallar qlobal bazarlara mənfi təsirlərini göstərəcək və qiymət dalğalanmaları gözləniləndir.

### Monetar və fiskal siyasət sıx koordinasiya olunacaq

Bütün bu amilləri ümumi təsnifləşdirdikdə, 2025-ci ildə daxili və xarici bazarlarda baş verəcək dəyişikliklərdən asılı olaraq istehlak qiymətləri dəhlizinin formalaşacağı istisna deyil. Bu baxımdan inflyasiyanın azalacağına arxayın olub prosesi nəzarətsiz buraxmaq qeyri-mümkündür. MB öz mandatına uyğun olaraq zəruri nəzarət alətlərini davam etdirəcək. Nazirlər Kabinetinin 15 iyul 2023-cü il tarixli sərəncamı 2025-ci ildə də əsas yol xəritəsi kimi diqqətdə saxlanılacaq. Həmin sənədə əsasən, ölkədə inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyədə saxlanılması və bu sahədə qurumlararası koordinasiyanın gücləndirilməsi tədbirləri növbəti il üçün də aktualdır. Nəzərə alsaq ki, gələn il büdcə xərclərinin irihəcmli artımları da nəzərdə tutulub və bu, inflyasiya təzyiqlərini yüksəldə bilər. Ona görə də hökumət bu riskləri də nəzərə alaraq xərclərdə maksimum ehtiyatlı davranaraq izafi xərclər və pul kütləsi yaranmasının qarşısını almağa çalışacaq. Əlaxsus da monetar və fiskal siyasətin sıx əlaqələndirilməsi istiqamətində görülmüş səmərəverici tədbirlər yenə də əsas çağırış kimi iqtisadi blokun masasında qalacaq.

*E.CƏFƏRLİ*

# Ukrayna çətin durumda...

## Kiyevin müraciətlərinə baxmayaraq, NATO tələsmir

Rusiya-Ukrayna müharibəsində son vəziyyət rəsmi Kiyev üçün müsbət məcrada inkişaf etmir. Qərbin hərbi yardımına baxmayaraq, Rusiya orudusu Ukrayna ərazilərini ələ keçirməkdə davam edir. Belə bir şəraitdə Kiyevin ümidi NATO-ya üzv olmaqdır. Alyansın dünən Brüsseldəki mənzil-qərargahında keçirilən üzv ölkələrin xarici işlər nazirlərinin görüşündə bu ölkənin üzvlüyünə baxılmayıb. Bu görüşün fonunda Ukrayna XİN 5 dekabr 1994-cü il tarixli Budapeşt memorandumunun imzalanmasının 30-cu ildönümü ilə bağlı bəyanat yayıb. Xatırladaq ki, həmin sənədə uyğun olaraq, Ukrayna beynəlxalq təhlükəsizlik zəmanəti müqabilində nüvə silahından imtina edib.

### Təhlükəsizlik zəmanətinə əməl olunmur

Lakin indiki vəziyyətdə sənədə imza atan Qərb ölkələri Ukraynanın təhlükəsizliyini yetərincə qorumur. Ukrayna XİN-in sözügedən bəyanatı da Brüsseldə XİN başçılarının görüşü üçün mesaj hesab oluna bilər. Rəsmi Kiyevin mövqeyi belədir ki, Ukrayna artıq dəstəklənməyən zəmanətlərlə razılaşmayacaq. Onun uzunmüddətli təhlükəsizliyinin yeganə yolu NATO-ya qoşulmaqdır. Ukrayna XİN-in bəyanatında deyilir ki, ölkə alyansa üzvlüyü əvəz edən istənilən formatdan imtina edir.

Dekabrın 1-də Kiyevdə Ukrayna prezidenti Volodimir Zelenski Avropa İttifaqı Şurasının rəhbəri Antonio Kosta və Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas ilə danışıqlar zamanı da eyni mövzunu müzakirə edib. Müzakirənin sonunda o, Brüsseldəki görüşdə Ukraynanın NATO-dan tələblərinin nədən ibarət olduğunu konkretləşdirib. Koşta ilə birgə keçirdiyi mətbuat konfransında Zelenski Ukraynanın NATO-ya sürətli şəkildə üzv olmaq ərizəsinin verilməsindən danışıb. O, bunun praktiki olaraq nə demək ola biləcəyini, necə ildən və ya aydan sonra ölkənin alyansa qoşulmalı olduğunu və bunun üçün hansı islahatların aparılmasının vacibliyini açıqlamayıb. Zelenski yalnız onu açıqlayıb ki, dəvət 1991-ci il sərhədləri daxilində Ukraynaya aid edilməlidir, lakin NATO-nun təhlükəsizlik zəmanətləri yalnız rəsmi Kiyevin nəzarətində olan ərazilərə şamil edilə bilər. Alyansın təcrübəsində əvvəllər belə bir şey olmayıb. Heç bir ölkə təşkilata hissə-hissə daxil olmayıb.



### NATO Ukraynanı üzv qəbul etməyə hazırlaşmır

Lakin görünən odur ki, NATO Ukraynanı üzv qəbul etməyə hazırlaşmır. Rusiya ilə müharibədən əvvəl və müharibə dövründə bu barədə Qərb dövlətləri tərəfindən dəfələrlə vəd verilsə də, yerinə yetirilmir. Bugünlərdə Avropanın “Politico” nəşri də adı açıqlanmayan dörd ABŞ və NATO rəsmisinə istinadən məlumat yayıb ki, alyansın bir sıra üzvləri, o cümlədən ABŞ və Almaniya Ukrayna prezidenti Volodimir Zelenskinin müraciətlərinə müsbət cavab verməyə və Rusiya ilə birbaşa münaqişədən çəkinərək Kiyevi dərhal alyansa dəvət etməyə hazır deyil.

Əvəzində alyans Ukraynaya hərbi yardımın artırılmasından bəhs edir. Belə ki, Brüsseldə XİN başçılarının toplantısı çərçivəsində NATO-nun Baş katibi Mark Rutte ABŞ Dövlət katibi Antoni Blinkenlə görüşü zamanı deyib ki, Ukraynaya daha çox hərbi yardım göstərilməsi üçün əlimizdən gələn hər şeyi etməliyik. O qeyd edib ki, bu gün əsas diqqət yetirilməli məsələlərdən biri Ukraynadakı vəziyyətlə bağlıdır: “Biz bilirik ki, döyüş meydanında vəziyyət ağırdır və Ukraynaya daha çox hərbi yardım göstərilməsi üçün əlimizdən gələni etməliyik. Mən ABŞ-a, həmçinin İsveç, Böyük Britaniya, Estoniya, Norveç və Almaniyaya son bir neçə gündə Ukraynaya əlavə hərbi yardım göndərildiyini elan etdiklərinə görə təşəkkür etmək istəyirəm. Bu, xüsusilə qışın gəldiyi və Ukraynanın enerji infrastrukturu ilə bağlı vəziyyətin məlum olduğu bir vaxtda olduqca vacib addım idi”.

**Rəsmi Kiyevin mövqeyi belədir ki, Ukrayna artıq dəstəklənməyən zəmanətlərlə razılaşmayacaq. Onun uzunmüddətli təhlükəsizliyinin yeganə yolu NATO-ya qoşulmaqdır. Ukrayna XİN-in bəyanatında deyilir ki, ölkə alyansa üzvlüyü əvəz edən istənilən formatdan imtina edir**

### Ukraynalılar Zelenskini diktator adlandırır?

Yeri gəlmişkən, müharibənin uzun müddət davam etməsi və döyüş bölgəsində uğursuzluq Ukrayna əhalisini də yormaqdadır. Buna görə də, ölkə vətəndaşları arasında müharibənin dayandırılmasını istəyənlərin sayı artır. Bu yaxınlarda keçirilmiş rəy sorğusunda iştirakçıların 60 faizinin atəşkəs imzalanmasını dəstəkləməsi də bunu təsdiqləyir. Digər tərəfdən, Ukraynanın televiziya kanallarının birində jurnalist Diana Pançenkanın V.Zelenskini “diktator” adlandırması da ölkədə müharibə yorğunluğunun göstəricisidir.

Gələn il yanvarın 20-dən sonra Donald Trampın ABŞ-də prezident kimi səlahiyyətlərinin icrasına başlaması Rusiya-Ukrayna müharibəsində yeni vəziyyət yarada bilər. Əgər Tramp vədinə əməl etsə, tezliklə müharibə dayanmalıdır.

*Nardar BAYRAMLI*

# NATO müəmması...

## Avropa Vaşinqtonu fikrindən daşındırmağa çalışır

Şərqi Avropada müharibənin bitmə perspektivinin yaranması kollektiv Qərbin bir sıra nümayəndələrini narahat etməkdədir. Xüsusilə, ABŞ-nin yeni seçilmiş prezidenti Donald Trampın müharibə ilə bağlı mövqeyi, ölkəsinin NATO-dan çıxması haqqında açıqlamaları, Almaniyanın son sülhyaratma missionerliyi “Avrokoalisiya”nı təşviş salıb. Bayden adminstrasiyasının dağıdıcı siyasi kursuna alət olan bu dövlətlər gələcəkdə Moskva ilə yaşaya biləcəkləri problemləri indidən göz önünə alırlar. Bu baxımdan da, onlar hərəkətə keçərək ABŞ-ın həm NATO-dan çıxmasının qarşısını almaq, həm də Ukraynaya hərbi yardımın minimuma endirməklə bağlı qərarlarından daşındırmaq istəyirlər.

### “Köhnə qitə” təhlükəsizlik “çətiri”ni itirmək üzrədir

### Silah bazarı əldən çıxır, Rusiya ilə üz-üzə qalmaq qorxusu yaranır...

ABŞ-nin kölgəsində, NATO çətiri altında Rusiyaya qarşı açıq müharibə demarşları edən ölkələr təbii ki, təkbətək mübarizədən yayınırlar. Onlar Avropa qitəsində sabitliyin yaranmasını özləri üçün sanki təhdid sayırlar - əslində isə, avrosentrist qrupun Fransa kimi üzvləri ABŞ-ni “Rusiya kartı ilə” şantaj edərək ötən dövrdə özünün maraqlarını önə çəkib:

- Məsələn, Rusiya-Ukrayna müharibəsi başlayandan bəri Fransanın silah satışından əldə etdiyi gəlir bir neçə dəfə artıb. Bu silahların mühüm hissəsi Ukraynaya satılıb və ya “verilib” - həmin silahların pulu isə məhz ABŞ-nin ayırdığı yardımlar əsasında ödənilib;
- Kolonialist siması ifşa edilən Fransa və onun kimi dövlətlər artıq müstəmləkələrdən qovulurlar. Havayı qazanc mənbələri əldən çıxır - bunun kompensasiyası isə fərqli coğrafiyalarda yeni siyasi oyunlar qurmaqdır. Xatırladaq ki, Cənubi Qafqaz üzərində də Ermənistanın əli ilə bu tamaşanın bir “pərdəsi”ni oynamağa cəhd ediblər, amma alınmayıb. Bu “tamaşalar”, siyasi oyunlar isə “kollektiv Qərb” fonunda ABŞ-nin adından istifadə edilərək irəli sürülür. Çünki təkbaşına bu dövlətlərin əksəriyyəti heç bir hansısa uğur əldə etməyə qadir deyil...

**Rusiya-Ukrayna müharibəsi başlayandan bəri Fransanın silah satışından əldə etdiyi gəlir bir neçə dəfə artıb. Bu silahların mühüm hissəsi Ukraynaya satılıb və ya “verilib” - həmin silahların pulu isə məhz ABŞ-nin ayırdığı yardımlar əsasında ödənilib**

**Artıq NATO rəhbərliyi və Zelenski də dərk edir ki, sülh qaçılmazdır - sadəcə, indi aparılan “mübarizə” sərfəli sülh şərtləri əldə etmək üçündür**

**Tramp administrasiyasına ölkəni NATO-dan çıxarmaq üçün Senatın üçdə iki səsi və ya Konqresin aktı bəs edir. Bu isə Avropanın ən böyük 15 NATO üzvünün hərbi xərclərinin ildə 340 milyard dollar artması deməkdir**

### ABŞ-ni yola gətirmək üçün

Bu mənada, yaranan yeni situasiya onların maraqlarına cavab vermir. Yeri gəlmişkən, NATO-nun baş katibi Mark Rütte ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampa Ukraynanın Rusiya ilə mənfi şərtlərlə sülh sazişi imzalaması halında Amerikanın qarşılaşacağı ciddi təhlükələr barədə xəbərdarlıq edib. Rütte Ukraynaya məcburən zərərli bir sülh razılaşması təklif edilməsi vəziyyətində Çin, İran və Şimali Koreyanın mövqeyinin güclənəcəyini vurğulayıb. O, Ukraynanın Rusiyaya qarşı “yaxşı bir razılaşma” əldə etməsinin vacib olduğunu qeyd edib və ABŞ-ni Ukraynaya hərbi dəstəyi davam etdirməyə çağırıb.

NATO-nun baş katibi Ukraynanın “zərərli” bir sülhə məcbur edilməsinin yalnız Qərbin düşmənlərini sevindirəcəyini və onların öz hücumlarını planlaşdırmağa başlayacağını bildirib. NATO-nun Baş katibi Ukrayna prezidentinin müzakirələrə güclü bir mövqedən başlamağı üçün ona hərbi dəstəyin artırılmasının daha vacib olduğunu, NATO üzvlüyü ilə bağlı müzakirələrdən daha önəmli hesab etdiyini bildirib.



Ukrayna prezidenti Volodimir Zelenski daha əvvəl bildirib ki, Tramp və onun komandası Ukraynanın mövqeyini və “qələbə planını” yaxşı anlayır. Bu plan Ukraynanın sülh danışıqlarında güclü mövqe əldə etməsini təmin etməyə yönəlib.

Əslində artıq NATO rəhbərliyi və Zelenski də dərk edir ki, sülh qaçılmazdır - sadəcə indi aparılan “mübarizə” sərfəli sülh şərtləri əldə etmək üçündür.

### Avropa diz üstdədir...

İsveçrəli deputat Jaklin De Kuatro isə bildirib ki, ABŞ NATO-nu tərk edərsə, Ukrayna münaqişəni uduzacaq. “Avropa bu hərbi dəstəyin çatışmazlığını aradan qaldıra bilməyəcək”, - deyə deputat etiraf edib. J.Kuatro həmçinin bildirib ki, İsveçrə Donald Trampın ABŞ-də hakimiyyətə gəlməsindən narahatdır, çünki bu, ölkədəki geosiyasi vəziyyətə birbaşa təsir edir.

Vurğulamaq lazımdır ki, NATO-nun gələcəyi ilə bağlı ortaya çıxan ən mühüm “narahatlıqlardan” biri Trampın ölkəsinin alyansı tərk etmə perspektivini açıqlamasıdır. Halbuki, Bayden adminstrasiyası seçkilərə qədər Ukraynanın da alyansa qoşulması üçün əlindən gələni edirdi. Bəzi Avropa ölkələrinin bu plana “veto” qoyması isə Baydenin komandasının işini çətinə saldı.

İndiki halda isə nəinki Ukraynanın quruma qoşulması, hətta qurumun özünün gələcəyi sual altına düşüb. Tramp adminstrasiyasına ölkəni NATO-dan çıxarmaq üçün Senatın üçdə iki səsi və ya Konqresin aktı bəs edir. Bu isə Avropanın ən böyük 15 NATO üzvünün hərbi xərclərinin ildə 340 milyard dollar artması deməkdir. Nəzərə alsaq ki, Şimal Alyansında xərclərin ödənilməsində yeganə üçrəqəmli göstərici (750 milyard dollar) ABŞ-yə aiddir, bu o deməkdir ki, Vaşinqtonun NATO-dan çəkilməsi ehtimalı Avropanı əməlli başlı çətinə salacaq. Bu səbəbdən də avrosentrist qrup min bir bəhanə ilə, xüsusilə Kiyev üzərindən Donald Trampa təsir etməyə salışır

*P.İSMAYILOV*

# Cənubi Koreyada 45 ildən sonra...

## Prezidentin impiçmenti müzakirəyə çıxarılır

### 6 saatlıq hərbi vəziyyət siyasi gərginliklərə yol açacaqmı?

Qlobal gərginlik artıq Uzaq Şərqə də çatıb. Son günlərdə Cənubi Koreyada baş verən hadisələr göstərir ki, 2024-cü ilin sonuna qədər bu regionda da hansısa “siyasi təlatümlər” gözlənilə bilər. Belə ki, Cənubi Koreya Prezidenti Yun Sok Yol müxalifəti qiyamın hazırlanmasına yönəlmiş antidövlət fəaliyyətində ittiham edərək dekabrın 3-də gecə saatlarında fövqəladə hərbi vəziyyət elan etmişdi. Buna müxalifət tərəfindən ciddi etiraz səsləndirildi və məsələ dekabrın 3-dən 4-nə keçən gecə ölkə parlamentində səsverməyə çıxarıldı. Nəticədə Prezident Yun Sok Yoldan hərbi vəziyyətin ləğv olunmasını tələb edən qətnamə qəbul edilib. Cənubi Koreyanın konstitusiyasına əsasən əgər parlament çoxluğu tələb edirsə, hərbi vəziyyət ləğv olunmalıdır. Parlamentin qərarından sonra Prezident Yun Sok Yol kabinetin iclasını keçirib və hərbi vəziyyətin aradan qaldırılması barədə razılıq əldə olunub. Dövlət başçısı dekabrın 4-də yerli vaxtla səhər saat 4:30-da hərbi vəziyyətin ləğv olunduğunu elan edib. Hərbi vəziyyətlə əlaqədar küçələrə çıxarılmış ordu isə geri çəkilib. Beləliklə, Cənubi Koreyada təxminən 6 saat davam edən hərbi vəziyyət rejimi başa çatıb. Xatırladaq ki, Cənubi Koreyada 45 ildir hərbi vəziyyət tətbiq edilmir. Prezident Yun Sok Yol hərbi vəziyyətlə bağlı qərarını məhz “Şimali Koreyayönlü qüvvələrlə” mübarizə aparmaq ilə əlaqələndirmişdi.

### İmpiçment səsə qoyulacaq...

Hərbi vəziyyət aradan qaldırılsa da, siyasi gərginlik aradan qalxmayıb. Müxalifət baş verənlərin Cənubi Koreya üçün mənfi nəticələri haqda fikir bildirib. Onlar iddia edirlər ki, baş verənlər, xüsusilə hərbi vəziyyət Şimali Koreyanı təhrik edə bilər. Toburo Demokratik Partiyasının sədri Li Jae-myung deyib ki, Koreya Respublikasında hərbi vəziyyətin tətbiqi və ləğvi ilə bağlı vəziyyət KXDR-i “təhrik edə” və Koreya yarımadasında silahlı toqquşmalara səbəb ola bilər. “Toburo” ölkədə hərbi vəziyyətin elan edilməsi ilə əlaqədar prezident Yun Sok Yol və müdafiə naziri Kim Yong-hyunu dövlətə xəyanətdə ittiham etməyi planlaşdırır. Qeyd olunur ki, partiya müvafiq məsələ üzərində işləmək niyyətindədir.

Eyni zamanda, müxalifət partiyaları prezidentin impiçmenti barədə təklif təqdim etmək barədə razılıq əldə ediblər. Normalara uyğun olaraq təklif üzrə səsvermə 24-72 saat ərzində aparılmalıdır. Bu o deməkdir ki, səsvermə dekabrın 6 və ya 7-də keçiriləcək.

Koreya Respublikası Nazirlər Kabinetinin bütün üzvləri baş nazirə altı saatdan az davam edən hərbi vəziyyətin tətbiqindən və ləğvindən sonra istefa vermək niyyətlərini bildiriblər. Bu barədə “Çosun İlbo” qəzeti məlumat yayıb. Baş nazirin ofisi təsdiqləyib ki, Nazirlər Kabineti tam halda istefa vermək istəyini ifadə edib.

Prezident administrasiyasının rəhbərliyi isə ölkədə hərbi vəziyyətin tətbiqi və ləğvi fonunda istefa verib. “Prezidentin baş katibi də daxil olmaqla, prezident aparatının yüksək vəzifəli şəxsləri istefalarını kollektiv şəkildə elan ediblər”, - məlumatda deyilir.



### Xarici səfərlər təxirə salınır, səfirliklər xəbərdarlıq edir...

Baş verənlər beynəlxalq aləmdə də fərqli assosiasiya yaradıb. Belə ki, Avstraliya səfirliyi Cənubi Koreyadakı vəziyyətlə əlaqədar vətəndaşların qəbulunu dayandırıb. Diplomatlar respublikadakı vətəndaşlarına da diqqətli olmağı və insanların sıx olduğu yerlərdən uzaq dayanmağı məsləhət görüb. Müvafiq elan Avstraliya Xarici İşlər Nazirliyinin saytında yerləşdirilib. “Cənubi Koreyada vəziyyət daxili siyasi hadisələrə görə dəyişir, nəqliyyatda və digər əsas xidmətlərdə fasilələr ola bilər, xəbərləri izləyin və yerli hakimiyyət orqanlarının tövsiyələrinə əməl edin”, - deyə bəyanatda bildirilib. Seuldakı səfirlik açıq olsa da, şəxsi səfərlər və qəbul dayandırılıb.

Cənubi Koreya ilə dostluq əlaqələrini inkişaf etdirmək üçün partiyalararası deputatlar qrupuna rəhbərlik edən Yaponiyanın keçmiş baş naziri Yoşihide Suqa bu ölkəyə səfərini ölkədə hərbi vəziyyətin tətbiqi və sonradan ləğvindən sonra yaranmış vəziyyətlə əlaqədar ləğv edib. Bu barədə “Kyodo” agentliyi məlumat yayıb. Qeyd edək ki, səfər dekabrın ortalarına planlaşdırılıb. Suqa Cənubi Koreyanı “iqtisadi və təhlükəsizlik baxımından son dərəcə vacib qonşu” adlandırıb. “Kyodo” mənbələrinin məlumatına görə, Cənubi Koreyadakı vəziyyət Yaponiyanın hazırki baş naziri Şiqeru İşibanın 2025-ci ilin yanvarına planlaşdırılan səfərinə də təsir edə bilər.

ABŞ-ın Seuldakı səfirliyi də konsulluq xidmətlərini dayandırıb. Bu barədə diplomatik nümayəndəliyin bildirişində bildirilib: “Prezidentin hərbi vəziyyətin ləğvi barədə bəyanatından sonra vəziyyət qeyri-sabit olaraq qalır”. Bildirişdə o da vurğulanıb ki, səfirlik vətəndaşları izdihamlı yerlərdən və nümayişlərdən çəkinməyə çağırıb. Xəbərdarlıq edib ki, hətta dinc toplanışlar belə qarşıdurmaya çevrilə, zorakı münaqişəyə səbəb olmaq ehtimalı daşıyır. Baş verənlərlə əlaqədar səfirlik Amerika vətəndaşlarının konsulluq məsələləri ilə bağlı, həmçinin viza müraciətlərinin qəbulunu ləğv edib. Diplomatik nümayəndəlik əməkdaşlarının onlayn fəaliyyət göstərilməsinə, övladlarının məktəbə göndərilməməsinə çağırış edilib.

İsveçin baş naziri Ulf Kristersson da Koreya Respublikasına səfərini təxirə salıb. İsveç hökumətinin başçısının səfəri dekabrın 5-nə planlaşdırılmışdı.

Dekabrın 2-dən Koreya Respublikasında səfərdə olan Qırğızıstan Prezidenti Sadır Japarovun təhlükəsizliyi ilə bağlı heç bir təhdid yoxdur. Bunu, Qırğızıstanın müvafiq strukturları bəyan edib.



### Baş qərargah rəisi elan etdi...

Koreya Respublikasının Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin (KNSH) rəhbəri Kim Myung-soo isə KXDR-in gözlənilən hər hansı müdaxilə cəhdinin qarşısını almaq üçün tam hazır vəziyyətdə gözləməyin vacibliyini bəyan edib. Bu barədə Yonhap agentliyi məlumat yayıb. “Hərbçilərin əsas prioriteti vətəndaşların müdafiəsi və təhlükəsizliyidir, Şimali Koreyanın “səhvlərə” yol verməməsi üçün yüksək hazırlıq saxlanılmalıdır”, - deyə Kim Myung-soo deyib. Komandirlərlə görüşdə o, həmçinin KXDR-ə qarşı nizam-intizam və sayıqlığın qorunub saxlanmasını əmr edib.

**Müxalifət partiyaları prezidentin impiçmenti barədə təklif təqdim etmək barədə razılıq əldə ediblər. Normalara uyğun olaraq təklif üzrə səsvermə 24-72 saat ərzində aparılmalıdır. Bu o deməkdir ki, səsvermə dekabrın 6 və ya 7-də keçiriləcək**

### ABŞ bəyanat verdi...

ABŞ dövlət katibi Antoni Blinken Cənubi Koreyada hərbi vəziyyətin aradan qaldırılmasını yüksək qiymətləndirib. Qeyd edilib ki, Vaşinqton administrasiyası Cənubi Koreyada hərbi vəziyyətin ləğvini müsbət qiymətləndirir və ölkə hakimiyyətinin mübahisəli məsələləri sülh yolu ilə həll edəcəyini gözləyir.

Blinkenin bəyanatında o da vurğulanır ki, Birləşmiş Ştatlar Koreya Respublikasında baş verən hadisələri diqqətlə izləyir: “Biz prezident Yun Sok Yolun yekdil rəydən sonra Koreya Respublikasının Konstitusiyasına əsasən hərbi vəziyyət elan etmək əmrini aradan qaldırmasını alqışlayırıq. Biz istənilən siyasi fikir ayrılığının sülh yolu ilə və qanunun aliliyinə uyğun həll ediləcəyini gözləyirik”.

**SADİQ**

# Yelisey Sarayı siyasi böhran məngənəsində

## Yeni qurulan Barnye hökumətinin son akkordları

Fransanın bugünkü reallıqlarını təhlil etdikdə gəlinən qənaət belədir ki, ölkə tarixinin ən pis dönəmindən keçir. Fransa böyük ənənələri və güclü potensialı olan bir ölkədir. Ancaq zamanında bütün dünyada yenilik kimi qəbul olunan tarixi ənənələrdən hazırda əsər-əlamət yoxdur. Eyni zamanda, ölkənin malik olduğu imkanlarla onun inkişafı arasında uyğunsuzluq getdikcə daha da artır. Müxtəlif dairələrdə açıq şəkildə etiraf olunur ki, Fransanın indiki durumu və inkişaf tendensiyaları digər Avropa ölkələri ilə müqayisədə nikbinlik yaratmır, ölkə getdikcə daha çox dərəcədə müasir çağırışlardan geridə qalır.

Bütün bunların əsas səbəbi kimi isə Makronun iki prezidentliyi dönəmində apardığı siyasət göstərilir. Analitiklər paralellər aparmaqla, müqayisəli faktları təqdim etməklə əminliklə bildirirlər ki, geriləmələrə görə bütün məsuliyyət Makronun üzərinə düşür.

### Hökumətin süqutu an məsələsidir

Əslində, Mişel Barnye hökumətini saxta hökumət kimi səciyyələndirmək daha doğru olardı. Cari ildə Fransada əvvəlcə Avropa Parlamentinə, sonra isə Milli Assambleyaya keçirilən seçkilərin nəticələri Makron iqtidarına olan inamsızlığı bütün cəhətləri ilə ortaya qoydu. Belə ki, hər iki mərhələdə sağçı “Milli birlik” partiyası və onunla müttəfiq qüvvələr, eləcə də solçu “Yeni Xalq Cəbhəsi” koalisiyası üstünlük qazandı. Prezidentin rəhbərlik etdiyi mərkəzçi adlandırılan koalisiya isə ciddi məğlubiyyətə uğradı. Qanunvericiliyə görə yeni hökumətdə seçkilərin nəticələri nəzərə alınmaqla formalaşdırılmalı idi. Lakin hakimiyyət hərisi olan Makron nəinki özü istefa vermədi, hətta hökuməti də bir neçə ay gecikdirmə ilə və saxtakarlıqla formalaşdırdı ki, bu da Fransa cəmiyyəti tərəfindən prezidentin seçkilərin nəticələrini tanımaması, qanunlardan və demokratiyadan vaz keçməsi anlamında qəbul olunur.

**Qanunvericiliyə görə yeni hökumətdə seçkilərin nəticələri nəzərə alınmaqla formalaşdırılmalı idi. Lakin hakimiyyət hərisi olan Makron nəinki özü istefa vermədi, hətta hökuməti də bir neçə ay gecikdirmə ilə və saxtakarlıqla formalaşdırdı ki, bu da Fransa cəmiyyəti tərəfindən prezidentin seçkilərin nəticələrini tanımaması, qanunlardan və demokratiyadan vaz keçməsi anlamında qəbul olunur**

Makronun saxtakarlıqla formalaşdırdığı Barnye hökuməti elə ilk günlərdən ölkə boyunca artan problemlərin öhdəsindən gəlməkdə aciz olduğunu nümayiş etdirir. Aradan bir neçə ay ötməsinə rəğmən, ölkə iqtisadiyyatının hansısa bir sahəsində müsbət dəyişikliklərin müşahidə edildiyini söyləmək çətindir. Əksinə, tənəzzül meyillərində daha yüksək dinamika ortadadır . Günlər ötdükcə böhran daha da dərinləşir. Artıq açıq şəkildə görünür ki, Barnye hökumətinin son akkordları çalınır və onun süqutu an məsələsidir. Ümumi qənaət belədir ki, Barnye hökuməti dərinləşən böhrana cəmi bir neçə gün tab gətirə bilər.

### Dövlət maliyyəsi üzərində nəzarət itib

Böhran meyilləri bütün sahələrə sirayət edib. Ən kritik vəziyyət maliyyə sektorundadır. Dövlət maliyyəsi üzərində nəzarət itib, bu il kəsir ümumi daxili məhsulun 6,2 faizinə çatır. Dövlət borcu ilin sonunadək ÜDM-in 113 faizinə çatacaq. İqtisadiyyat hazırda durğunluq içərisindədir, işsizlik artır və investorlar Fransadan kütləvi şəkildə üz döndərirlər. Ölkə 1968-ci ilin mayından bəri görünməmiş vəziyyətlə üzləşib - dövlət təsisatları xaosa qərq olub, dövlət öz əsas missiyalarını yerinə yetirməkdə acizlik nümayiş etdirir.

**Bütövlükdə, hökumətin növbəti həftəyə keçə biləcəyi şübhə altındadır. Hökuməti devirmək üçün 288 deputat səs verməlidir. Milli Assambleyanın parlament çoxluğunun təklifini qəbul edəcəyi təqdirdə, bu, 1962-ci ildə Jorj Pompidu hökumətinin devrilməsindən sonra ilk belə hadisə olacaq**

Yerli mətbuatın yazdığına görə, ölkə dövlət büdcəsi ilə bağlı qanun layihəsinin qəbulu məsələsində də gərginliklə üzləşib. Belə ki, Baş nazir Konstitusiyanın 49.3 maddəsinə müraciət edəcəyini və büdcə haqqında qanun layihəsinin Milli Assambleyada razılıq olmadan qəbul ediləcəyini bildirəndən bəri hökumətə qarşı senzuranın təklifi irəli sürülüb. Mişel Barnye təyinatından sonra ilk siyasi çıxışında dövlət kəsirini 2025-ci ildə ÜDM-in 5 faizinə, 2029-cu ildə isə 3 faizə endirməyi qarşıya məqsəd qoymuşdu. Ancaq onun təklifi qəbul edilmir.

### Parlament təzyiq edir, hökumətin çaşqınlığı artır

İfrat siyasi qrupların üstünlük təşkil etdiyi parlamentdə gedən müzakirələr hökumətin çaşqınlığını daha da artırıb. Senzura riski ilə üzləşən hökumət sağçılara pensiyaların indeksasiya olunmamasını, Qabriel Attala ödənişlərin azaldılmasını, Marin Le Penə elektrik enerjisi üzrə vergilərin artırılmasından imtina etməyi təklif edib. Bütövlükdə, ölkədə vergilərlə bağlı vəziyyət daha da pisləşir, dövlət xərcləri artmaqda davam edir. “Yeni Xalq Cəbhəsi” və “Milli Birlik” partiyaları tam pensiya üçün 43 illik töhfələr tələb edən Turen islahatının ləğv etmək üçün bütün vasitələrdən istifadə edir.



Bu arada Fransa iqtisadiyyatının vəziyyəti və ətraf mühit xeyli pisləşib. Dövlət maliyyəsinin yenidən balanslaşdırılmasına başlaya bilməmək, büdcədə planlaşdırılan fiskal şok siyasi qeyri-müəyyənliyi də artırıb, fəaliyyəti iflic edib, işsizliyin qəfil artımına səbəb olub, investisiyaların qarşısını alıb.

Sahibkarların xarici sərmayəni yayındırmaları və maliyyə böhranının başlaması səbəbindən Fransa indi İspaniya, Portuqaliya və Yunanıstandan daha yüksək faizlə borc alır.

Bütövlükdə, hökumətin növbəti həftəyə keçə biləcəyi şübhə altındadır. Hökuməti devirmək üçün 288 deputat səs verməlidir. Milli Assambleyanın parlament çoxluğunun təklifini qəbul edəcəyi təqdirdə, bu, 1962-ci ildə Jorj Pompidu hökumətinin devrilməsindən sonra ilk belə hadisə olacaq. Bəzi siyasətçilər M. Barnyenin ədalətsiz siyasət apardığını səsləndirərək, onun hökumətindən çox şey gözləmədiklərini bildirirlər.

*Mübariz FEYİZLİ*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Heç bir mənafe güdmədən...

## Beynəlxalq Könüllülər Günüdür




Könüllülük mərhəmət, əliaçıqlıq, ədalət hissi deməkdir. Könüllülük ümid yeri olmaq, savab qazanmaq, xalqına, vətəninə xidmət etməkdir. Biz dünən də belə idik, bu gün də beləyik, şübhəsiz ki, sabah da bu keyfiyyətimizə sadiq qalacağıq. Könüllülük həm də kollektiv əmək deməkdir. Bərabər işləmək istedadıdır.

Dünya tarixində müasir anlamda könüllü fəaliyyət anlayışına ilk dəfə XVII əsrdə Fransa ordusunda rast gəlinir. Bu anlayış könüllü hərbçi olmaq istəyən fransızların qeydə alınmasından sonra meydana çıxıb. 1881-ci ildə isə ABŞ-də vətəndaş müharibəsi zamanı qadınların könüllü olaraq tibb bacısı kimi fəaliyyət göstərməsi minlərlə könüllünü ətrafında birləşdirən Amerika Qırmızı Xaç Təşkilatının yaranmasına səbəb oldu.

### Könüllülük nədir?

Könüllülük insanların heç bir mənafe güdməyərək məlumat, bacarıq, zaman və hansısa bir sahədə təcrübələrini öz istəkləri ilə ictimai təşəbbüs və yaxud ictimai təşkilatın məqsədi üçün istifadə etmələridir.

Xarici ölkələrdə olduğu kimi ölkəmizdə də könüllülük Qeyri Hökumət Təşkilatlarının (QHT) mövcudluğunun təməl ünsürlərindəndir. Könüllülərlə çalışmaq qurumun daha geniş fəaliyyət göstərə bilməsi və geniş əlaqələr qura bilməsi baxımından çox önəmlidir. Hər il dekabrın 5-i dünyada Beynəlxalq Könüllülər Günü kimi qeyd olunur.

### Könüllülük psixologiyası...

Ölkəmizdə daha çox könüllülük əsasında çalışan insanlara QHT-lərdə rast gəlmək mümkündür. Çünki bu cür təşkilatların iş prinsipi könüllü olaraq, hər hansı maddi mənafe güdməyərək vətəndaş cəmiyyətinin inkişafına dəstək verməkdir. Zamanını, əməyini və bacarığını hər hansı bir layihədə sərf edən insanlar daha çox yardım etmək və başqaları üçün faydalı olmaq üçün könüllü çalışdıqlarını qeyd edirlər. Ancaq bununla yanaşı, bir sıra başqa istəklər də var ki, insanları könüllü olmağa sövq edir. Könüllülük psixologiyasını başa düşmək könüllülərin çalışdığı qurumlarda iş prosesinin daha da effektivliyinə təsir göstərə bilər. Könüllülərin əməyindən istifadə edən hər bir qurumun könüllülük psixologiyasını yaxşı bilməyi vacibdir.

**Zamanını, əməyini və bacarığını hər hansı bir layihədə sərf edən insanlar daha çox yardım etmək və başqaları üçün faydalı olmaq üçün könüllü çalışdıqlarını qeyd edirlər. Ancaq bununla yanaşı bir sıra başqa istəklər də var ki, insanları könüllü olmağa sövq edir**

### İnsanlar nə üçün könüllü olurlar?

İnsanlar hər hansı bir qurumda və yaxud müəyyən təşəbbüslərdə uzunmüddətli və qısa zaman kəsiyində könüllü olaraq çalışırlar. Bu insanların şəxsi istəyindən və eləcə də boş vaxtından asılıdır. İnsan psixologiyasından asılı olaraq cavab axtaracağımız sualın cavablarına da müxtəlif aspektdən yanaşmaq olar. İnsanların könüllülük psixologiyasına, yəni nə üçün könüllü olaraq çalışdıqlarına diqqət yetirək:

-İnsanlar yaşadığı sosial çevrələrində önəmli və tanınmış biri olmaq istəyir;

-Könüllü olaraq çalışaraq özlərinə sosial bir əhatə qazanaraq tənhalıqdan və yaxud məyusluqdan özlərini qurtarmaq istəyirlər;

-İnandığı hər hansı bir işə dəstək olmaq istəyirlər;

-Könüllü olaraq çalışmaqla müəyyən təcrübə qazanmaq istəyi;

-Görülən işlər əyləncəli görünə bilər və dolayısı ilə orada olmaqdan insan zövq ala bilər;

-Müəyyən təcrübə və bacarıqları olan insanlar könüllü olaraq çalışmaqla öz biliklərini itirməmək istəyirlər;

-Könüllü olan şəxs özünü ehtiyac duyulan biri kimi görmək istəyir;

-Yeni dost qazanmaq istəyi;

-Özlərində olan qabiliyyətləri başqaları ilə bölüşmək istəyi;

Tariximizin ən böyük, təsvirolunmaz təmənnasız könüllülük aktı, əlbəttə ki, Vətənin müdafiəsinə könüllü yollanmağımızdır. Həm də kişi-qadın fərq etmədən... 21-ci əsr ölkəmizin könüllülük həyatında dərin izlər buraxmaqdadır. Çoxsaylı dövlət, özəl, ictimai təşkilat öz fəaliyyətilə könüllülük prinsiplərini qoruduğunu göstərir və hətta beynəlxalq miqyasda xeyriyyəçilik ənənələrimizi nümayiş etdirirlər.

Bu gün ölkəmizdə gənclərin fəaliyyətində könüllülük xüsusi yer tutur və bu sahəyə maraq olduqca böyükdür. Ancaq 2013-cü ilə kimi könüllülük ölkədə kiçik komandalarla fəaliyyət göstərirdi. Həmin il Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN xidmət) yanında fəaliyyət göstərən "ASAN Könüllüləri Təşkilatı" yaradıldı.

**Bu gün ölkəmizdə gənclərin fəaliyyətində könüllülük xüsusi yer tutur və bu sahəyə maraq olduqca böyükdür. Ancaq 2013-cü ilə kimi könüllülük ölkədə kiçik komandalarla fəaliyyət göstərirdi. Həmin il Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN xidmət) yanında fəaliyyət göstərən "ASAN Könüllüləri Təşkilatı" yaradıldı**

### Uğur formulumuz...

Bu hərəkat minlərlə gəncin ilkin əmək vərdişləri qazanmasına, öz peşəsinin incəliklərini öyrənməsinə, yeni bilik və bacarıqlar əldə etməsinə geniş imkan verdi.

Dövlət başçısının 2020-ci ili ölkəmizdə "Könüllülər ili" elan edilməsi könüllülük hərəkatının inkişafına daha da təkan verdi. Bununla da könüllü şəxslərin əmək bazarında öz yerlərini tutmalarına münbit şərait yarandı. Eyni zamanda, könüllülük gənclərdə vətənpərvərlik və dövlətçiliyimizə sədaqət kimi keyfiyyətləri formalaşdırdı.

### Könüllülüyün məkanı, yaşı, sərhədi yoxdur...

Könüllülüyün zamanı, məkanı, yaşı, sərhədləri yoxdur. Bunu edən şəxs heç bir proqrama qoşulmadan, heç bir ictimai birliyin və ya təşkilatın üzvü olmadan da yerinə yetirə bilər. Çünki könüllülük könül işidir...

*Yeganə BAYRAMOVA*

# Oturaq həyat tərzi ürək sağlamlığına mənfi təsir edir

Yeni araşdırma oturaq həyat tərzi ilə ürək sağlamlığı arasında güclü əlaqənin olduğunu bir daha təsdiqləyib.

AZƏRTAC "The İndependent" nəşrinə istinadla xəbər verir ki, ABŞ-nin Massaçusets xəstəxanasında çalışan alimlərə görə, idman gündəlik fəaliyyətin yalnız kiçik bir hissəsini təşkil edir və mövcud sağlamlıq təlimatları, oturaq həyat tərzinin mənfi təsirlərini azaltmağa dair konkret tövsiyələr ehtiva etmir.

"JACC" akademik jurnalında nəşr olunan yeni araşdırmada, Britaniya Biobankında qeydiyyatdan keçmiş 90 min nəfərin sağlamlıq məlumatlarını təhlil edilib. Araşdırmaya cəlb olunanların 56 faizini qadınlar təşkil edib, onların orta yaşı 62 olub. İştirakçılar 7 gün ərzində biləklərinə taxılan akselerometr vasitəsilə hərəkətlərini qeydə alaraq məlumat təqdim ediblər. Bu iştirakçılar gündə ortalama 9,4 saat oturaq vəziyyətdə qaldıqlarını bildiriblər.

Tədqiqatın məqsədi oturaq vaxt və fiziki fəaliyyətin birgə təsirini qiymətləndirmək və bu faktorların atrial fibrilasiya (AF), miokard infarktı (MI) və ürək çatışmazlığı (HF) kimi ölümcül ürək xəstəlikləri ilə əlaqəsini araşdırmaq olub. Alimlər, iştirakçıları 8 il ərzində izləyərək, 3600 nəfərdə AF, 1850 nəfərdə HF və 1600 nəfərdə MI xəstəliklərinin inkişaf etdiyini müəyyən ediblər. Bu dövr ərzində 900-ə yaxın iştirakçı ürək xəstəliyindən ölüb. Araşdırmanın nəticələri göstərib ki, AF və MI ilə qarşılaşanlar arasında risk zamanla mütəmadi olaraq artıb. Lakin HF və ürək xəstəlikləri ilə qarşılaşanlar üçün oturaq vaxtın gündə 10,5 saata qədər artırılmasında risk artımı minimal olub. Bu həddə çatdıqda isə riskin əhəmiyyətli dərəcədə artdığı müşahidə olunub. Fiziki fəaliyyətin tövsiyə olunan 150 dəqiqəlik həftəlik həcmində yerinə yetirilməsi iştirakçılarda AF və MI risklərinə bəzi müsbət təsirlər göstərib, lakin HF və ürək-damar xəstəlikləri (CV) ilə əlaqəli ölümlərin riski bu qrupda da yüksək qalıb. Tədqiqatçılar, bu nəticələrin ictimai sağlamlıq səylərinə və gələcək təlimatlara dair əhəmiyyətli bir məqamı vurğulayırlar - oturaq vaxtın azaldılmasının vacibliyi.



Tədqiqatın həmmüəllifi Şaan Xurşid gündə 10,6 saatdan çox olmayan oturaq vaxtın sağlam ürək üçün məqsəd olaraq qəbul edilə biləcəyini vurğulayıb.

Alimlər məsələnin daha da dərindən araşdırılması və oturaq həyat tərzinin ürək sağlamlığına təsirlərinə qarşı daha konkret tövsiyələrin verilməsinin vacibliyini bildirirlər. Onlar iştirakçıların hərəkətsizlik müddətini ölçmək üçün istifadə edilən akselerometrlərin bəzi xətalar edə biləcəyini, xüsusən duruşun düzgün qiymətləndirilməməsi səbəbindən potensial yanlış nəticələr verə biləcəyini vurğulayıblar. Bununla belə, alimlər bu araşdırmanın oturaq həyat tərzi ilə ürək sağlamlığı arasındakı əlaqəni möhkəmləndirən daha çox sübut təqdim etdiyini bildirirlər. Broun Universitetinin Ailə Təbabəti Departamentinin direktoru Çarlz İton bu tədqiqatın insanların sağlamlığını yaxşılaşdırmaq üçün daha çox hərəkət etmələri lazım olduğunu sübut edən güclü dəlillər ortaya qoyduğunu vurğulayıb.

## Allah rəhmət eləsin!

BDU-nun Tətbiqi Riyaziyyat Elmi Tədqiqat İnstitutunun kollektivi İnstitutun əməkdaşı İmarət Quliyevaya əziz qardaşı

**QULİYEV MƏNSUR QULU OĞLUNUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir

*İdman*

# Lionel Messi və komanda yoldaşları Bakıya gəlir




ABŞ-nin "İnter Mayami" klubunda çıxış edən dünya futbolunun əfsanəsi Lionel Messi və komanda yoldaşları Luis Suares, Serxio Buskets və Xordi Alba Bakıya gəlirlər.

AZƏRTAC xəbər verir ki, dekabrın 11-də Bakı Kristal Zalında keçiriləcək tədbirdə pərəstişkarlar dünya çempionu, səkkiz dəfə "Qızıl top" mükafatını qazanan argentinalı superulduzla və komanda yoldaşlarını görmək imkanı qazanacaq.

İştirakçılar futbol ulduzları ilə birlikdə maraqlı, unudulmaz anlar yaşayacaq, Messinin futbol həyatını və mübarizəsini əks etdirən filmi izləyə biləcəklər. Filmdə izləyicilərə futbol ulduzunun həyatı və karyerası ilə bağlı unikal anlar təqdim olunacaq.

Tədbiri xüsusi musiqi atmosferi müşayiət edəcək. Bakı Kristal Zalının səhnəsində dünya şöhrətli bəstəkar, müğənni Villi Uilyam və məşhur "Morandi" qrupu çıxış edəcək. Tədbir yalnız futbolsevərlər üçün deyil, həm də musiqi və mədəniyyət həvəskarları üçün unudulmaz anlar vəd edir.

Biletləri iTicket.az saytı və satış məntəqələrindən əldə etmək olar.

Biletlərin satışından əldə olunan vəsait xeyriyyə məqsədinə yönləndiriləcək.

# Stolüstü tennisçilərimiz Finlandiyaya yollanıblar



Azərbaycanın stolüstü tennisçiləri daha bir beynəlxalq yarışda iştirak edəcəklər.

Federasiyadan AZƏRTAC-a verilən məlumata görə, ənənəvi "Finlandiya Open" turnirində milli komandanın 12 üzvü bacarığını göstərəcək. Baş məşqçi Mixail Timofeyev və məşqçi Elnur Hidayətzadənin rəhbərliyi ilə Hilal Həsənov, Vəzir Allahverdiyev, Nihad Məmmədov, Rüstəm Hacılı, Adil Əhmədzadə, Onur Quluzadə, Zemfira Mikayılova, Ləman Abdulhəmidova, Mərziyyə Nurmətova, Arzu Aslanova, Aylin Əsgərova və Yağmur Məmmədli etimadı doğrultmağa çalışacaqlar.

Beynəlxalq dərəcəli hakim Zaur Mikayılov isə iki yaş qrupu üzrə keçiriləcək yarışın oyunlarını idarə edəcək.

Sabah Lohya şəhərində start veriləcək "Finlandiya Open"ə dekabrın 8-də yekun vurulacaq.

# Bakıda üçnövçülük üzrə Azərbaycan çempionatı keçiriləcək

Bakıdakı Respublika Olimpiya Mərkəzində Tofiq Karayev mükafatı uğrunda üçnövçülük üzrə XXVII Azərbaycan çempionatı keçiriləcək.

Azərbaycan Atletika Federasiyasından "Report"a verilən məlumata görə, yarış 2011-2012 təvəllüdlü idmançılar arasında baş tutacaq.

İstedadlı uşaqların müəyyən edilməsi məqsədi daşıyan turnirə 60 və 200 metr məsafəyə qaçış, həmçinin uzunluğa tullanma növbəri daxildir.

Qeyd edək ki, Azərbaycan çempionatı dekabrın 7-də təşkil olunacaq.





Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4800
Sifariş: 2817
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli